

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 45 (24.480)

22 noyabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Keçilməzdir qərb qapımız

# Kəlbəcər



*Siyasi masadakı qələbə*

27 il ərimədi Murovun qarı. Buz kəsdi Ömər aşırımı. 27 il yuxuları qarışdı Kəlbəcərin, ta ki həmin ilə kimi. Şuşa dağları səs edib xəbər gətirmişdi ona: "Hazır ol! İgid oğullar gəlir, səni də mənim kimi azad edəcəklər", – deyə. Şuşa dağlarından çəkilən dumandan sonra doğulan günəşin istisi Kəlbəcəri də isidirdi artıq. Və bir səhər qırılan ağacların səsi, tüstülənən evlərin alovunun istisi onu yuxudan oyatdı. Həmin gün dərindən bir ah çəkdi Kəlbəcər. Yenə eyni mənzərə var idi, evlər od tutub yanır, meşələr qırılır, insanlar onu tərk edirdi. Yox, burada bir fərq var idi. Bu dəfə gedənlər çağırılmamış qonaqlar idi. Gəldikləri kimi də getdilər, yenə dağıdıb, yandırıb. Amma bir şeyi unudurdular ki, torpaq öz sahibinin əlində olanda cənnətə dönür. Bundan əmin idi, bu dağlar cənnəti. Əmin idi, ona görə də qəlbi heç kədərlənmədi evləri, ağacları yandırıb gedəndə çağırılmamış qonaqlar. Əksinə, sevindi ki, odalov düşmənin izini sildi qoynundan. Artıq bu torpaqda bir ayaq izi var, o da Azərbaycan əsgərinin ayaq izidir. Payızın son günlərindən birində – 25 noyabrda Kəlbəcər şəhəri də daxil olmaqla rayonun 147 yaşayış məntəqəsi öz sahibinə qaytarıldı. Qəhrəman Azərbaycan əsgəri 44 gündə elə bir igidlik göstərmişdi ki, Kəlbəcəri bir güllə atmadan azad etmişdi. Şad xəbəri Ali Baş Komandan xalqa müraciətində verərək dedi: ***"Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. ...Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik".*** Müzəffər Sərkərdənin Kəlbəcərin qəlbində zəfər bayrağını göylərə çəkdiyi gün dağların başındakı cənnət öz xoşbəxt gələcəyinə qədəm qoydu. Azad edilən ərazilərə həyat qayıtdıqca bahar çiçəkləri daha gözəl açmağa başladı. Dağların zirvəsindəki cənnətin – İsti suyunun şöhrəti özünə qayıtdı. Yeni-yeni yaşayış binaları inşa edildi. Artıq öz çıraqğımız yanmağa başladı Kəlbəcərdə.

Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal olunmuşdu. İşğal nəticəsində 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüş və itkin düşmüşdü. Nəticədə, 60 min kəlbəcərli ölkənin 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. İşğal nəticəsində onlarla tarixi-mədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, yüzlərlə maşın, texnika və sair talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb.

Səhifə ⮕ 3

# Böyük Qayıdışın bəhrələri, yenidən qurulan Ağdam



*Keçmişə boylananda...*

Ümidsizliyə qapıldığımız zamanlar da oldu. Vətənin bir parçasını itirmək, yurdundan-yuvasından didərgin düşənlərin ağrıacısını bu millətin bir parçası olaraq bütün ruhumuzla duymaq da yazıldı qismətimizə. Dönüb geriyə baxdıqda 90-cı illərin burulğanı, ard-arda itirdiyimiz torpaqlar, gələn şəhid, itkin xəbərləri, düşmənin azğınlığı ilə dağıdılan abidələrimiz, məscidlərimiz, hələ də qulaqlarımızdan getməyən Xocalı harayı, Malıbəyli faciəsi və daha sadalamadığımız onlarla hadisə gözümüzün önündən kinolent kimi keçir. Keçmişi unutmarıq...

2020-ci ildə qazandığımız tarixi zəfərlə həyatımız, ruhumuz yeniləndi. Zəfərə köklındik, qarşıda bizi daha böyük zəfərlərə aparacaq yol görsənirdi. Həmin yolda Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoyuldu, terrorçulara qarşı mübarizədə yenə zəfər çaldıq. Ölkəmiz özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etmiş oldu. Gözü yolda qalan yaşayış məntəqələrimiz azadlığına qovuşdu. Daha bir zəfərimiz isə Ağdamın, Kəlbəcərin, Laçının bir güllə belə atılmadan geri qaytarılması idi. Bütün bu tarixi reallıqlar ölkə başçısının apardığı uğurlu siyasətin bəhrələri, müzəffər Ordumuzun qüdrəti sayəsində baş verdi. Bəli, biz bu tarixi yaşadıq. Böhranın, müharibənin, zəfərin və nəhayət də, Böyük Qayıdışın şahidləri olduq.

Səhifə ⮕ 5

# Yeni Azərbaycan Partiyası

## Azərbaycanın ictimai-siyasi tarixində mühüm nailiyyət



*Noyabrın 21-i Azərbaycan ictimai-siyasi fikir tarixinin ən əlamətdar və unudulmaz təqvimlərindən biri – Yeni Azərbaycan Partiyasının yarandığı gündür. Partiyanın yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Yeni Azərbaycan Partiyasının yaradılması müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda hakimiyyətin milli maraqlara zidd siyasəti nəticəsində ölkədə ictimai-siyasi böhranın, iqtisadi tənəzzülün hökm sürdüyü dövrə təsadüf edir. O zaman müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycanın ümidi müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasi xadim Heydər Əliyevə idi. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı ona müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 1992-ci il 24 oktyabr tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi.*

1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi müstəqil Azərbaycanın tarixində parlaq gələcəyin əsasını qoydu. Ancaq o dövrün mənzərəsinə nəzər salanda Azərbaycanın gələcəyi o qədər də parlaq görünmürdü: separatizm meyilləri güclənirdi, iqtisadi, sosial vəziyyət kifayət qədər gərgin idi, siyasi çəkişmələr getdikcə vəziyyəti daha da ağırlaşdırırdı. Bütün bunların fonunda Ermənistan-Azərbaycan münaqişəsi, torpaq və insan itkiləri müstəqilliyin də itirilməsinə gətirib çıxara bilərdi. Xalqın ümid yeri olan Heydər Əliyevin siyasi meydana qayıdışı isə Azərbaycanı bəlalardan xilas etdi, onun gələcək uğurlarına yol açdı.

Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı alındı. Heydər Əliyev öz qayıdışı ilə Azərbaycana sülh, sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Artıq cəmiyyətin hər bir üzvündə dövlətimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı. Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın sevimli partiyasına çevrilməsinin isə tək bir səbəbi var idi – xalqın partiyanın sədrinə olan sevgisi, inamı. Çünki zaman göstərdi ki, xalq Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etmiş oldu.

1993-2003-cü illərdə Azərbaycanda elə bir sahə olmadı ki, diqqətdən kənarda qalsın. Ulu Öndər ölkə həyatında baş verən bütün problemlərə həssaslıqla yanaşdı və onların həllinə çalışdı. Bir zamanlar xəyal edilən nəhəng iqtisadi layihələr həyata keçirildi. “Əsrin müqaviləsi” imzalandı, Heydər Əliyevin siyasi iradəsi və peşəkar diplomatik fəaliyyəti sayəsində Bakı-Tbilisi-Ceyhan layihəsi reallaşdı. Dövlət, ordu quruculuğu sahəsində ciddi işlər görüldü. Azərbaycan beynəlxalq arenaya çıxdı. Xarici ölkələr, beynəlxalq təşkilatlar məhz Ulu Öndərin siyasi nüfuzuna arxalanaraq müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığa başladılar.

Ümummilli Lider Azərbaycanın müstəqil və suveren dövlət kimi fəaliyyətini təmin edən kursu hazırladı və onu həyata keçirməyin bütün incə yollarını layiqli davamçısı cənab İlham Əliyevə miras kimi qoydu. Bütün bunların nəticəsidir ki, bu gün Azərbaycan regionun ən qüdrətli dövlətidir, dünyada böyük nüfuza malikdir. Regionda Azərbaycanın razılığı olmadan heç bir layihə icra olunmur. Ölkə daxilində sabitlik, firavanlıq hökm sürür, insanların rifah halı gündən-günə yaxşılaşır. Elə bir sahə yoxdur ki, orada öyünə biləcəyimiz nailiyyətimiz olmasın.

Ulu Öndər partiyanın uğurlu gələcəyini onun yaradılmasının ilk illərindən görürdü. O, müasir Azərbaycanın davamlı və nəhəng uğurlara imza atacağından əmin idi. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyev partiyanın yaradılmasının onuncu ildönümü ilə bağlı tədbirdə deyib: ***“Müstəqil Azərbaycan yeni Azərbaycandır. Müstəqil Azərbaycanda yeni ictimai-siyasi quruluş yaranıbdır. Yeni iqtisadiyyat formaları yaranıb, demokratiya, siyasi plüralizm inkişaf edir. Belə bir yeni Azərbaycan keçmişdə yaşadığımız, keçmişdə olan Azərbaycandan fərqlidir. Ona görə partiyamızın adı da Yeni Azərbaycan Partiyasıdır. Məhz Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır”.***

Ulu Öndərin də dediyi kimi, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə sübuta yetirdi ki, o məhz yeni müstəqil Azərbaycanı qurmağa, onu zirvələrə, parlaq gələcəyə daşımağa qadir partiyadır. Son prezident, parlament və bələdiyyə seçkiləri göstərdi ki, xalq partiyaya yüksək etimad göstərir. İstər 92,12 faiz səslə Yeni Azərbaycan Partiyasının namizədi kimi cənab İlham Əliyevin 2024-cü il fevralın 7-də yenidən Prezident seçilməsi, istər 2024-cü il sentyabrın 1-də keçirilən yeddinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının qələbə qazanaraq parlamentdə 68 millət vəkili ilə təmsil olunması, istərsə də 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının qələbə əldə edərək yerli özünüidarəetmə orqanlarında yerlərin böyük əksəriyyətini əldə etməsi bunu sübut edən vacib amillərdir.

Bu gün Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP böyük gücə çevrilib, onun 730 mindən çox üzvü var. Bu üzvlərin böyük hissəsi – 300 minə yaxını gənclərdir ki, onlar da Azərbaycanın tarixi zəfərinin qazanılmasında müstəsna rol oynadılar. Əsası məhz Ulu Öndər tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti yekunda öz müsbət nəticəsini verdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri sayəsində Azərbaycan ərazi bütövlüyünü, suverenliyini tam təmin etdi, torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoydu, xalqımız adını tarixə qalib xalq kimi yazdırdı. Hazırda Qarabağda və Şərqi Zəngəzurda “Böyük Qayıdış” proqramı uğurla icra olunur, geniş quruculuq işləri görülür, tarixi-mədəni abidələrimiz, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz bərpa olunur, soydaşlarımız öz əzəli yurdlarına geri dönürlər. Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində ölkəmizin nüfuzu beynəlxalq səviyyədə xeyli güclənib. Azərbaycan etibarlı dost, tərəfdaş kimi mühüm təşkilatlarda təmsil olunur, bütün platformalarda öz sözünü çəkinmədən, qətiyyətlə deyir. “Cənub Qaz Dəhlizi” layihəsinin müəllifi olan respublikamız bu gün 14 ölkənin mavi yanacağa olan tələbatını ödəməklə coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında liderdir. Ötən il COP29 kimi ümumbəşəri missiya daşıyan nəhəng konfransa layiqli ev sahibliyi etməklə müasir çağırışlara cavabını ən inamlı və qəti şəkildə verən, “yaşıl enerji” gündəliyi kifayət qədər geniş və əhatəli olan Azərbaycan günəş, külək və su elektrik enerjisi kimi bərpa olunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. Ölkəmiz Çindən Avropaya qədər uzanan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) əvəzolunmaz parçası kimi qitələrarası iqtisadi, ticari körpü rolunu oynayır, beynəlxalq münasibətlərin tənzimlənməsində etibarlı vasitəçilik missiyası yerinə yetirir. Respublikamız Prezident İlham Əliyevin məharətli diplomatiyası sayəsində müharibə meydanında qalib olduğu kimi, sülh arenasında da qələbə qazanıb, bu il avqustun 8-də Vaşinqtonda tarixi razılaşmalara nail olmaqla bölgəyə etibarlı sülh və əməkdaşlıq mühiti gətirməkdədir.

Əminliklə demək olar ki, yaradıcısı Ümummilli Lider Heydər Əliyev olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Ulu Öndərin ideya və arzuları ən yüksək şəkildə yaşadılır. Tarixi zəfərdən sonra yaranmış yeni reallıqlar, sülh platforması fonunda Azərbaycan partiyanın sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla, qətiyyətlə irəliləyir.

**“Şərq qapısı”**

## YAP-ın 33-cü ildönümünə həsr olunan elmi-praktiki konfrans keçirilib

Naxçıvan Dövlət Universiteti və Yeni Azərbaycan Partiyasının (YAP) Naxçıvan Şəhər Təşkilatının birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində YAP-ın yaradılmasının 33-cü ildönümünə həsr olunan “Milli Qurtuluşdan Suverenliyə gedən yol” mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbir Ümummilli Lider Heydər Əliyev və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Konfransı giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Azərbaycançılıq məfkurəsi xalq-dövlət-ordu birliyinin möhkəmləndirilməsində mühüm ideoloji dayaqlardan biridir. Bu məfkurə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində, milli kimlik və dövlətçilik prinsiplərinin formalaşmasında böyük rol oynayır. Tələbələrin təhsili, intellektual inkişafı, dövlətə sədaqət və sağlam siyasi təfəkkür ruhunda yetişdirilməsi universitetin prioritetlərindəndir.

YAP Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli “Milli Qurtuluşdan Suverenliyə Yeni Azərbaycan Partiyası” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis olunan YAP müstəqil dövlətçiliyin və ümummilli maraqların qorunması naminə cəmiyyətin bütün təbəqələrini səfərbər edən siyasi təşkilat kimi formalaşıb. Qeyd olunub ki, 2005-ci ildə keçirilmiş III Qurultaydan sonra YAP-ın sədri seçilən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkə regionun ən güclü dövlətlərindən birinə çevrilib.

Daha sonra YAP Universitet ərazi ilk təşkilatının sədri Bəhruz Məmmədov “Tarixi zəfərdən dövlət suverenliyinə: siyasi iradə, hərbi güc və milli həmrəylik”, NDU-nun professoru Hacıfəxrəddin Səfərli isə “30 yaşlı Konstitusiya və suverenliyin bərpası” mövzularında çıxış ediblər.

Yer quruluşu və daşınmaz əmlakın kadastrı ixtisası üzrə IV kurs tələbəsi Saleh Zamanov “Yeni Azərbaycan Partiyası xalqın inam ünvanıdır” mövzusunda çıxış edərək gənclərin partiyaya olan etimadından danışıb.

Sonda YAP-ın 33-cü ildönümü münasibətilə partiya üzvlərinin mükafatlandırılması, eləcə də partiyaya yeni qəbul olunan üzvlərə üzvlük biletlərinin təqdim olunması mərasimi keçirilib. Tədbir YAP-ın 33 illiyinə həsr olunmuş videoçarxın nümayişi və partiyanın himninin səsləndirilməsi ilə yekunlaşıb.

Qeyd edək ki, YAP-ın 33-cü ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarında da tədbirlər keçirilib.

# Keçilməzdir qərb qapımız

# Kəlbəcər



(əvvəli 1-ci səhifədə)

***Biz isə qurub-yaradanıq***

İşğaldan azad olunduqdan sonra Kəlbəcərə səfər edən Prezident İlham Əliyev buradakı erməni vəhşiliyi ilə bağlı deyib: ***"Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedəgetdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".***

Kəlbəcər zəngin təbii sərvətlərə və əsrarəngiz gözəlliyə malik diyardır. Relyefi dağlıq olan rayon ərazisi faydalı qazıntılarla zəngindir. Rayonun gözəl təbiəti, əlverişli relyefi, saf dağ iqlimi, zəngin mineral suları, o cümlədən Yuxarı İstisu, Aşağı İstisu kimi müalicəvi təsirə malik mineral su yataqları burada turizmin inkişafını şərtləndirir. Kəlbəcər rayonu həm də turistlərdə maraq yaradacaq bir çox tarixi abidələrlə zəngindir. Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Şanlı qələbə nəticəsində işğaldan azad edilən digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərə də həyat yenidən qayıdır. Kəlbəcər rayonunda həyata keçirilən layihələr sırasında Toğanalı-Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət daşıyır.

Kəlbəcərin azad olunmasından sonra dəfələrlə bu cənnət şəhərə səfər edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir çox təməlqoyma və açılış mərasimlərində də iştirak ediblər. İşğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Kəlbəcərə də Böyük Qayıdışla bağlı həyata keçirilən bütün işlər birbaşa dövlət başçısı İlham Əliyevin nəzarəti altında həyata keçirilir. Kəlbəcərə ilk səfərini 2021-ci il avqustun 16-da edən ölkə başçısı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11,6 kilometrlik, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunellərin təməlini qoyub, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasını işə salıb, uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinin gedişi ilə maraqlanıb. 2022-ci il 26 iyunda Kəlbəcərə səfər edən dövlət başçısı Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub, Kəlbəcər Zəfər və İşğal muzeylərinin təməlini qoyub. Həmin gün Kəlbəcərin rəmzi sayılan "İstisu" sanatoriyasının və "İstisu" Mineral Su Zavodunun da təməlləri atılıb. Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edən dövlət başçısı Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında olub.

Kəlbəcər şəhəri ilə bərabər rayonun kəndlərinin də inkişafı dövlətimizin xüsusi nəzarətində saxlanılır, çətin relyefli olan bu ərazidə infrastruktur layihələr gerçəkləşdirilir, yollar, tunellər çəkilir, su elektrik stansiyaları qurulur, bir sözlə, kompleks işlər görülür.

Prezident İlham Əliyevin 2023-cü ilin mayın 27-də Kəlbəcərə növbəti səfəri də mühüm açılışlarla, yeni bünövrələrin qoyulması ilə əlamətdar oldu. Həmin gün Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub. Bu yaşayış məhəlləsi 3,26 hektar ərazidə layihələndirilib. Məhəllədə dördmərtəbəli üç və ikimərtəbəli 10 yaşayış binasının inşası nəzərdə tutulur. Burada 112 mənzildə, ümumilikdə, 460 nəfərdən çox sakin yaşayacaq. Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməli də həmin gün atıldı. Bu səfər çərçivəsində Prezident İlham Əliyev Kəlbəcər rayonunun Yanşaq kəndinin təməlini də qoydu. Kənddə, ümumilikdə, 421 ailənin məskunlaşması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 218 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılıb.

Həmin ilin avqustunda isə dövlət başçısı Kəlbəcər rayonunun Zar kəndinin də təməlini qoydu. Kənddə, ümumilikdə, 855 ailənin məskunlaşması nəzərdə tutulub. Təməlləri qoyulan hər iki kənddə əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə olunacaq.

Vətənimizin ən gözəl guşələrindən biri olan Kəlbəcər həm də su elektrik stansiyalarının tikintisi üçün çox əlverişli bölgədir.

Dövlət başçısının sözügedən tarixdəki səfəri zamanı rayonda iki su elektrik stansiyasının – "Qamışlı" Kiçik Su Elektrik Stansiyasının və "Meydan" Kiçik Su Elektrik Stansiyasının açılışı həyata keçirildi.

Həmçinin səfər çərçivəsində ölkə Prezidenti uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək, ümumilikdə, bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanış oldu.

I, II və III texniki dərəcəli Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu iki, üç və dörd hərəkət zolağından ibarət olacaq. Bu yolun üzərindəki 5 tunelin ümumi uzunluğu 25,9 kilometrdir. Buradakı ən uzun tunel Murov dağının altından keçir. Həmin tunelin uzunluğu 11,6 kilometrdir.

Kəlbəcər-Laçın avtomobil yolu isə mövcud yoldan 33,1 kilometr qısadır. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4,1 kilometr olan 23 körpü və ümumi uzunluğu 1076 metr təşkil edəcək 3 qovşaq inşa olunacaq. 2 sentyabr 2024-cü ildə rayona səfər edən dövlət başçısı Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "AzərEnerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak edib. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə, Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və modul tipli məktəbin layihəsi, 524 ailəlik yaşayış kompleksinin, Kəlbəcər rayonunda "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub. Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin, inzibati binanın təməli qoyulub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə "İstisu" Mineral Su Zavodunun, "İstisu" Yarımstansiyasının, "Zar" KSES-in açılışında iştirak edib və SCADA sistemi vasitəsilə Göygöl rayonunda "Toğanalı" KSES-in açılışını edib. Kəlbəcər rayonunun İstisu qəsəbəsinin təməlini qoyub.

Cari ilin avqust ayının 21-də Prezident İlham Əliyev Kəlbəcərə səfəri zamanı buraya köçmüş 20 ailəyə mənzillərin açarlarını təqdim edib. Bu ailələr Kəlbəcər şəhərinin 1-ci yaşayış kompleksində məskunlaşıblar. Ölkə başçısı Kəlbəcər şəhərində salınacaq 4-cü yaşayış kompleksinin də təməlini qoyub. Qeyd edək ki, kompleksin ümumi ərazisi 10 hektara yaxındır. Burada 807 ailənin məskunlaşdırılması planlaşdırılır. Tikiləcək 26 yaşayış binasının hər biri 4 mərtəbədən ibarət olacaq. Ümumilikdə, 128 birotaqlı, 304 ikiotaqlı, 293 üçotaqlı və 82 dördotaqlı mənzil nəzərdə tutulur. İlk mərtəbələrdə məişət və ticarət obyektləri yerləşəcək ki, bu da sakinlərin gündəlik ehtiyaclarının elə yaşadıqları məkan daxilində təmin olunmasına imkan verəcək. Lakin layihə yalnız yaşayış binaları ilə məhdudlaşmır. Burada uşaqlar üçün oyun meydançaları, idman sahələri, velosiped yolları, istirahət guşələri və söhbətgahlar inşa ediləcək. Kəlbəcərdə salınacaq müasir məhəllə həm şəhərin simasını dəyişəcək, həm də burada yeni ictimai həyatın başlanğıcını qoyacaq. Ümumilikdə, Kəlbəcərdə 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla, 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcək.

Artıq Kəlbəcərdə yeni həyat qaynayır, 4 ildir ki, heyvandarlıqla, arıçılıqla məşğul olan təsərrüfatçılarımızın Kəlbəcər yaylaqlarına köç etməsi isə buna ən parlaq nümunələrdəndir. Hələ 2021-ci ilin 16 avqustunda Kəlbəcərdə səfərdə olan ölkə başçısı buraya köç edən arıçılarla görüşüb söhbət edərkən demişdi: ***"Bizim balımız da çox keyfiyyətlidir. İndi Kəlbəcər balı, yəqin ki, bütün digər yerlərdən daha da keyfiyyətli olacaq".***

Kəlbəcər həm də Azərbaycanın qərb qapısıdır. 1993-cü ildə bu rayonun işğal altına düşməsi nəticəsində digər rayonlarımızın da asanlıqla düşmən əlinə keçməsi ilə nəticələnmişdi. Buna görə də strateji mövqeyə malik Kəlbəcərdə dövlət sərhədlərimizin toxunulmazlığı, əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində hərtərəfli işlər həyata keçirilir. Kəlbəcərin diplomatik masada qazanılan zəfər sayəsində geri qaytarılması dövlət başçısının düşünülmüş və uzaqgörən siyasətinin nəticəsi idi.

Xatırladaq ki, 26 iyun 2022-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcərdə yeni yaradılmış komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdi. 2023-cü ilin mayın 27-də isə qalib lider Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak etdi, burada yaradılan şəraitlə tanış oldu. Müzəffər Sərkərdə deyib: ***"İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir".***

Bizim ordumuz bunu 44 gündə və sonrakı əməliyyatlarda bir daha sübut etdi. Və 27 il öz yurdundan uzaq düşməyə məcbur olan 60 min kəlbəcərlinin ümidləri 25 noyabr 2020-ci ildə gerçəyə döndü. ***"Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar",*** – deyən Ulu Öndərin arzusu da yerinə yetdi həmin gün. Və bu gün dağların incisi Kəlbəcər öz gözəl günlərinə geri dönür. Dağlar qol açıb doğmalarını qucaqlayır.

**Ramiyə ƏKBƏROVA**



# Azərbaycan-Mərkəzi Asiya dövlətləri:

## ortaq tarix və mədəni irsdən güc alan strateji tərəfdaşlıq xarakteri

***Azərbaycan dəyişən dünya nizamı fonunda apardığı uğurlu diplomatiya, çoxvektorlu xarici siyasəti ilə qitələrarası, regionlararası siyasi, iqtisadi və mədəni dialoqa körpü salır, faydalı əməkdaşlıqlar üçün geniş perspektivlər yaradır. Bu xüsusda respublikamızın Mərkəzi Asiya regionunda yerləşən türkdilli dövlətlərlə əlaqələrinin dərinləşməsini Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının yaxınlaşması baxımından əhəmiyyətli hadisə kimi dəyərləndirmək olar. Məhz son üç ildə Mərkəzi Asiya dövlətləri başçılarının Azərbaycana 23 və Prezident İlham Əliyevin isə həmin qardaş ölkələrə 14 səfər etməsi münasibətlərin yüksək səviyyəsindən, faydalı əməkdaşlıq platformasının formalaşmasından xəbər verir. Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü də “Bizim ailəmiz Türk dünyasıdır” ideyasının müəllifi olan Prezident İlham Əliyevin apardığı uğurlu diplomatiyanın bu nöqteyi-nəzərdən növbəti uğurlu addımı kimi yadda qaldı.***



Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin unikallığı oradadır ki, bu əlaqələr artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. Bu da ondan irəli gəlir ki, ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir. Ümumiyyətlə, Azərbaycan dövləti irəli sürdüyü mühüm təşəbbüs və reallaşdırdığı layihələrlə regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verdiyini sübut edir. Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoq və qarşılıqlı səfərlər isə bu əməkdaşlıq formatının daha böyük uğur qazanmasında mühüm amildir. Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü bu çərçivədə növbəti mühüm addımların atılması ilə nəticələndi, faydalı əməkdaşlıq üçün önəmli məsələlərin müzakirəsinə həsr olundu. Görüşün ən mühüm siyasi hadisəsi, təbii ki, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında Qərarın qəbul edilməsi idi. Bu addım bir daha respublikamızın qlobal nüfuzunu göstərməklə müasir çağırışlarla bağlı irəli sürdüyü təşəbbüslərin Mərkəzi Asiya regionunda böyük inam qazandığını sübut edir. Prezident İlham Əliyev görüşdə çıxışı zamanı verilən Qərarın münasibətlərin dostluq və qardaşlıq xarakterini təsdiqlədiyini vurğuladı. Sitat: ***“Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması ilə bağlı qərara görə hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir”.***




Azərbaycanla Mərkəzi Asiya dövlətlərinin iqtisadi əməkdaşlığında mühüm birləşdirici amil olan Xəzər dənizi və bu çərçivədə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) layihəsi önəmli paya sahibdir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir. Müqayisə üçün bildirmək yerinə düşər ki, 2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm, təxminən, bir milyon tona çatıb ki, bu da ticari əlaqələrdə genişlənməni, nəqliyyat daşımalarında dinamik artımı nümayiş etdirir. Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, növbəti illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla bütün infrastrukturlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Cari il avqustun 8-də Vaşinqtonda əldə olunan tarixi razılaşmalarla yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması bütün regiona, o cümlədən də Mərkəzi Asiya ölkələrinə böyük fayda gətirəcək. Prezident İlham Əliyev Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışı zamanı son üç ildə Orta Dəhliz üzrə Azərbaycandan keçən yükdaşımaların 90 faiz artdığını bildirdi, Zəngəzur dəhlizinin dəmir yolu hissəsinin Orta Dəhlizin əsas arteriyasına çevriləcəyini diqqətə çatdırdı: ***“Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta Dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir”.***

Mərkəzi Asiya regionunda yerləşən türkdilli dövlətlərlə Azərbaycanın əlaqələri özünü 30 illik işğal dönəmində, o cümlədən Vətən müharibəsi dövründə dövlətimizin haqq işinə, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dəstəkdə göstərib. Respublikamızın tarixi zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda apardığı böyük quruculuq tədbirlərində də bu dövlətlər qardaşlıqlarını, dostluqlarını nümayiş etdirirlər. Bu gün Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin, Ağdamda isə Manas məktəbinin fəaliyyət göstərməsi, eyni zamanda bu ilin oktyabrında Füzulidə məscidin təməlinin qoyulması bu qardaşlıq və dostluğun əyani göstəriciləridir. Bütün bunlar bir daha belə deməyə əsas verir ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakterə malikdir, ölkələrimizi ortaq tarix, mədəni irs və qardaşlıq bağları, o cümlədən müasir çağırışlar, geosiyasi reallıqlar bağlayır. Prezident İlham Əliyevin dediyi kimi: ***“Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik”.***

**“Şərq qapısı”**



# Böyük Qayıdışın bəhrələri, yenidən qurulan Ağdam

*(əvvəli 1-ci səhifədə)*

***Həsrətin sonu***

*Düz 27 il Ağdam həsrəti ilə yaşadıq. 1993-cü il iyulun 23-də erməni silahlı birləşmələri tərəfindən ərazisinin 77,4 faizi – 1 şəhər və 80 kəndi işğal olunan Ağdamda yaşayış binaları, tarixi abidələr dağıdılıb yerlə-yeksan edilmiş, əhalisi didərgin düşmüşdü. Qazanılan tarixi zəfərdən sonra Ağdamda üçrəngli bayrağın müqəddəs kölgəsinin başı üzərindəki qara buludları qovacağına əmin idi. Beləliklə, 2020-ci ilin noyabrın 10-da imzalanan üçtərəfli bəyanata uyğun olaraq Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarıldı. Lakin bizim gördüyümüz Ağdamdan əsər qalmamışdı. Çox keçmədən noyabrın 23-də Prezident İlham Əliyev Ağdama səfəri zamanı erməni faşizminin yaratdığı reallığı dünya ictimaiyyətinə təqdim edir və Azərbaycanın üçrəngli bayrağını qaldıraraq Ağdamın yenidən dirçələcəyinə əminliyini bildirir:* ***“Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır”.***

Verdiyi hər vədinə sadiq, sözü imzası qədər keçərli olan ölkə başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası bütün Qarabağı və Şərqi Zəngəzuru əhatə etdiyi kimi, Azərbaycanın böyük və strateji əhəmiyyətə malik rayonlarından olan Ağdamda da uğurla davam etdirilir. Əcnəbi jurnalistlərin “Qafqazın Xirosiması” adlandırdığı Ağdam Böyük Qayıdışdan payını alaraq yenidən qurulur. Ölkə başçısının hər səfəri Ağdamda quruculuq işləri, sosial obyektlərin istifadəyə verilməsi, yeni layihələrin gerçəkləşdirilməsi ilə reallaşır.



## *Yenidən doğulan şəhər*

Ölkə başçısının daim diqqət mərkəzində saxladığı Ağdama növbəti səfəri uzun çəkmir. 2021-ci il mayın 28-də Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Ağdam Sənaye Parkının, Zəfər muzeyinin və açıq hava altında İşğal muzeyinin, 140 illik tarixi olan Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlqoyma və Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimlərində iştirak edir. Həmin gün sahəsi 125 hektar olan Ağdam şəhər meşə parkında ağacların əkilməsinə də start verilir. Müstəqillik gününü Ağdamın dirçəlişinə yönələn quruculuq töhfələri ilə qeyd edən ölkə başçısı dünyaya sülhün, ədalətin zəfər təntənəsini bir daha duyurmuş olur: ***“Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi”.***

Həmin gün Ağdamın Baş planı ölkə başçısına təqdim olundu. Bu plana əsasən şəhərin coğrafi əhatəsi 3 dəfəyə yaxın artırılaraq 1750 hektar nəzərdə tutulub. Ağdam Azərbaycanda əhalisinin sayına görə 4-cü böyük şəhər olacaq. Bu şəhərdə 100 min əhali yaşayacaq. Ərazidə çoxlu müxtəlif sosial, mədəni, fiziki, iqtisadi infrastruktur obyektləri inşa olunacaq. Bir sözlə, “ağıllı şəhər” konsepsiyasına uyğun inşa ediləcək Ağdamda bütün zəruri infrastrukturun müasir standartlara uyğun qurulması əhalinin rahat yaşayışına və düşmən işğalından zərər görmüş Ağdamın yenidən və daha gözəl, modern şəhər kimi qurulmasına hesablanıb.



## *Dünya görsün ki...*

*Dünya bir daha görsün ki, Azərbaycanın savaşı haqq savaşı idi. Əgər o torpaqlar ermənilərə məxsus olsaydı, dağıtmazdılar. Yaxşı bilirdilər ki, o torpaqlarda bizim ata-babalarımızın ruhları dolaşır, yaxşı bilirdilər ki, gec-tez torpağın əsl sahibləri qayıdacaqdır. Ötən 5 il ərzində sürətlə və əzmlə aparılan işlər Ağdamı ağ günlərə qovuşdurmaqdadır. 2022-ci ildə ölkə başçısı Ağdama 2 dəfə fevralın 13-də və oktyabrın 4-də səfər edib. Bu səfərlər zamanı – fevralın 13-də Ağdam Sənaye Parkında iki müəssisənin, “Park Forest Otel Ağdam” mehmanxanasının, yeni yaşayış kompleksinin, 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimləri keçirilib, Prezident İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi, Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət kompleksi və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olub.*

Müasir Ağdam quruculuğu ilə yanaşı, tarixi irsin bərpası, milli-mənəvi dəyərlərin qorunması istiqamətində həssaslıqla görülən işlər tarixi bünövrənin, milli soykökün, adət-ənənənin möhkəmlənməsinə, neçə il azan səsinə həsrət qalmış torpaqların dirçəldilməsinə, gələcək nəsillərin öz tarixinə sahib çıxma ənənəsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 4-də Ağdam rayonuna səfəri çərçivəsində qısa müddət ərzində görülən işlər də məmnunluq doğurub. Yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda həyata keçirilən tədbirlər, Xurşidbanu Natəvanın abidəsinin açılışı, Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, rayonun Xıdırlı və Kəngərli kəndlərinin, 470 mənzildən ibarət yaşayış məhəlləsinin, şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin, “Aghdam City Hotel”in, şəhərin dəmir yolu və avtovağzal kompleksinin təməlqoyma mərasimləri bölgənin həm də gələcəkdə turizm sektorunun inkişafına hesablanıb.

Ağdamı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcəyini qeyd edən ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın davamlı səfərləri, göstərilən diqqət sayəsində böyüyən Ağdamda salınan yaşayış kompleksləri, insanların öz yurd-yuvalarına qayıtması 27 il işğalda inləyən bu torpaqlara nəfəs gətirib. Böyük sevinc və qürur hissi ilə yurduna dönən ağdamlılar üçün bundan böyük töhfə ola bilməz. İşğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin məşğulluğunun artırılması məqsədilə icra olunan layihələrdən biri də Ağdam Sənaye Parkıdır.

Ulu Öndərin arzularını gerçəkləşdirən, ölkənin suverenliyinin bərpasını təmin edən, yenidən öz torpaqlarına qayıdan insanlarla görüşüb onların sevincinə şərik olan ölkə başçısının 2025-ci il 10 may tarixli səfəri də təsadüfi gün olaraq seçilməmişdi. Ulu Öndərin anadan olduğu tarixi günü işğaldan azadlığa qovuşan Ağdamda böyük quruculuq lövhələri ilə qeyd etmək, ata vəsiyyətinə, göstərilən etimada, bəslənilən ümidlərə ehtiramın və əməli fəaliyyətin nəticəsi kimi dəyərləndirmək olar. Həmin gün Ağdam tarixinin ən şanlı gününü – inkişafının parlaq dövrünü yaşayırdı. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin, Ağdam Muğam Mərkəzinin, rayonun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edən ölkə başçısı bütün bu nailiyyətləri xalqımızın zəhməti, fədakarlığı, yurd sevgisi ilə dəyərləndirərək sevincini ağdamlılarla bölüşür: ***“Ağdam-Bərdə avtomobil yolu. İndi Bakıdan gələn qonaqlar o yolla gəliblər. Möhtəşəm bir yoldur. Sovet vaxtında belə yol olmamışdır. Ağdam-Xankəndi-Şuşa yolu, dəmir yolu, infrastruktur layihələri, tarixi abidələrimizin bərpası – birinci bərpa edilmiş bina Ağdam Cümə məscidi idi. İndi Qiyaslı məscidində bərpa işləri aparılır. Yaşayış kompleksləri inşa edilir, iki mehmanxana inşa edilib. İmarət kompleksi bərpa edilib, Xaçınçay su anbarı əkin sahələrini, torpaqları suvarma suyu ilə təmin etmək üçün fəaliyyətə başlayır və bir çox başqa layihələr icra edilir. Bunlar təkcə Ağdam rayonuna aiddir. Əgər bütün görülən işlərin miqyasını götürsək, sözün düzü, mən bilmirəm hansı ölkədə hazırda bu miqyasda quruculuq, inkişaf işləri aparılır”.***

***Böyük Qayıdışla qardaş sevgisi və ya zəfər dolu Ağdam***

Bu il iyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak etdilər. Kənddə yaradılan şəraitlə tanış olan Azərbaycanın və Qırğızıstanın dövlət başçıları, həmçinin Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını etdilər. 528 şagird yerlik tam orta məktəbin təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulub. Ölkə başçısı bir daha ölkələrimizin qardaşlığı, tarixi, etnik, mədəni və mənəvi yaxınlığımızın göstərici olmaqla bu təməl üzərində Qırğızıstan-Azərbaycan dostluğunun möhkəm binası kimi dəyərləndirdi.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçirilən 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı “İmarət” Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının “Zəfər” şousunu izlədilər. Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində göstərdiyi igidlik və cəsarət nümunələri böyük maraqla qarşılandı.

Qarabağda yenidən cövlan edən Qarabağ atları, bu atları idarə edən igid, vətənpərvər gənclər, Böyük Qayıdışla reallaşan böyük layihələr işğaldan azad edilən torpaqların, o cümlədən Ağdamın qurulan işıqlı gələcəyi tarixi ədalətin təntənəsi, gələcək nəslə ərməğan olunan suveren, müstəqil, azad, abad ölkənin haqq səsidir.

*Günün mübarək, Ağdam!*

**Ruhiyyə RƏSULOVA**

## Milli Məclisin büdcə müzakirələrində Naxçıvandan nümayəndə heyəti iştirak edib





Noyabrın 19-da Milli Məclisdə 2026-cı ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsinə həsr olunan növbəti plenar iclas keçirilib.

Üç gün davam edən iclasın gündəliyinə “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş), “Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş), “İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş), “Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş, “Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) və digərləri olmaqla, ümumilikdə, 8 məsələ daxil edilib.

İclasda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikasının Baş nazirinin birinci müavini Elşad Əliyev və Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov da iştirak ediblər.

# Azad İqtisadi Zona: Naxçıvanın investisiya cəlbediciliyinin artırılmasına əhəmiyyətli töhfə



Azərbaycan dövlətinin Vətən müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlar fonunda uzun illərdir, hərtərəfli blokadadan əziyyət çəkən, biznes mühiti əlverişsiz hal alan Naxçıvan Muxtar Respublikası üçün yeni, geniş üfüqlər açılmaqdadır. Məhz bu baxımdan Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” kompleks tərəqqisinin yol xəritəsini müəyyənləşdirməklə Naxçıvanın yeni yüksəlişini təmin edəcək. Dövlət Proqramının əsas hədəflərindən biri bölgədə əlverişli biznes mühiti və özəl sektorun, sahibkarlığın inkişafının təşviq və təmin edilməsidir ki, bu xüsusda Azad İqtisadi Zonanın yaradılması beynəlxalq təcrübəyə əsaslanan mütərəqqi addımlardandır. Dövlət Proqramında qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası vasitəsilə həyata keçiriləcək. Burada Azad İqtisadi Zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcək.

Azad İqtisadi Zona modeli dünya iqtisadiyyatında geniş tətbiq olunan və uğurlu nəticələr göstərən, əlverişli biznes fəaliyyəti formalaşdıran mütərəqqi iqtisadi yanaşma metodu, ticari fəaliyyət formasıdır. Bu zonaların yaradılması ilə xaricdən mal idxalı və ixracı üçün prosedurlar asanlaşdırılır, dövlət və ya özəl sektor tərəfindən müasir logistika və istehsalat infrastrukturu təmin olunur. Belə xüsusi zonalarda xarici sahibkarlar üçün daha əlverişli hüquqi şərait yaradılır, yeni bizneslərin qeydiyyatı və fəaliyyət icazələri sadələşdirilir. AİZ xarici investisiyaların cəlb olunmasına geniş imkanlar açır və yeni iş yerlərinin yaradılmasına töhfə verərək istehsal potensialını gücləndirir. Sadalanan bu üstün keyfiyyətlərə malik Azad İqtisadi zonalar ötən əsrin ikinci yarısından etibarən ABŞ, Yaponiya, Koreya, Çin və başqa ölkələrdə yaradılmağa başlanılıb. Dünya Bankının hesabatlarına əsasən hazırda dünyanın 130 ölkəsində 6 minə yaxın xüsusi iqtisadi zona mövcuddur ki, onların da qlobal ixracda çəkisi 200 milyard dollardan artıqdır. Ekspertlərin fikrincə, Azad İqtisadi zonalarda güzəştlərin tətbiqi nəticəsində mənfəət norması 30-35 faizdən artıq olur. Hətta Asiyanın Azad İqtisadi zonalarında fəaliyyət göstərən transmilli şirkətlər ildə orta hesabla 40 faiz mənfəət əldə edirlər.

Azad İqtisadi zonaların yaradılmasının ərazi konsepsiyası özündə tətbiq edilən ölkənin digər ərazilərindən ayrılmış elə bir ərazisini əks etdirir ki, burada yerləşən müəssisələr üçün xüsusi güzəştli rejim tətbiq olunur. Məhz bu baxımdan Azərbaycanın əsas hissəsindən coğrafi cəhətdən ayrı düşmüş Naxçıvan Muxtar Respublikasında belə zonanın yaradılması olduqca əhəmiyyətli və mühüm məsələdir. Digər tərəfdən, AİZ yerləşmə arealı ilə nəqliyyat-logistika baxımından da cəlbedici olmalıdır. Başqa sözlə, ticarət yollarının keçdiyi ərazidə bu modelin tətbiqinin effektivliyi daha böyükdür. Bu mənada, Şimal-Cənub, Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşən Ələt İqtisadi Zonası fonunda Azərbaycan təcrübəsi öz sözünü deyir. Sözügedən zonanın yaxınlığında Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Heydər Əliyev adına Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi, ərazidən avtomobil və dəmir yollarının keçməsi iqtisadi modelin effektivliyini ortaya çıxarır. Beləliklə də Ələt İqtisadi Zonası həm əlverişli sahibkarlıq mühitini formalaşdırmaqla, həm də beynəlxalq ticarətin bir parçasına çevrilməklə ölkə iqtisadiyyatının güclənməsi üçün xarici sərmayədarların cəlbinə xidmət edir. Məhz bu baxımdan Prezident İlham Əliyevin siyasi qətiyyətinin nəticəsi olaraq bu il avqustun 8-də Vaşinqtonda əldə olunan tarixi razılaşmadan sonra Zəngəzur dəhlizinin reallaşması timsalında Azad İqtisadi Zonanın yaradılması Naxçıvanın həm də dünya iqtisadi sisteminə uğurlu inteqrasiyası baxımından geniş perspektivlər vəd edir. Naxçıvanda Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi, müasir yol infrastrukturunun qurulması və bunların fonunda gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə dəmir yollarının müasirləşdirilməsi yaradılacaq AİZ-in fəaliyyətini bu kontekstdən tam təmin edəcək. Ərazi hüdudlarında hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi ilə özəl sektor üçün əlverişli biznes mühiti formalaşacaq ki, bu da müxtəlifprofilli yeni müəssisələrin yaradılmasına geniş imkanlar açacaq. Ədalətli bazar iqtisadiyyatı sisteminin tətbiqi rəqabətqabiliyyətli məhsul istehsalını şərtləndirməklə keyfiyyət amilini ortaya çıxaracaq. AİZ çərçivəsində kiçik və orta sahibkarlığın inkişafını təşviq edən digər mühüm amil isə, sözsüz ki, əlverişli, sərfəli kredit imkanlarının yaradılmasıdır. Bu xüsusda Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasına uyğun ötən dövrdə ölkədə fəaliyyət göstərən bankların və bank olmayan kredit təşkilatlarının muxtar respublikada filiallarının açılması ilə əhalinin, o cümlədən sahibkarların bank xidmətlərinə çıxışı asanlaşmaqdadır. Və bu proses mərhələli şəkildə davam edəcəkdir.

Təbii ki, Zəngəzur dəhlizi və AİZ-in eyni anda fəaliyyət göstərməsi muxtar respublika iqtisadiyyatına sərmayələrin, yerli və xarici investisiyaların cəlbinə şərait yaradacaq ki, bu da, son nəticədə, yeni iş yerlərinin yaradılması, əhali məşğullununun artırılması deməkdir. Bütün bu proseslərin reallaşması Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, həm kənd təsərrüfatı dirçələcək, Tarixi “İpək Yolu” funksiyasının yenidən icra edilməsi ticarət, logistika ilə yanaşı, turizm sektorunda da böyük canlanma yaradacaq. Mövcud zəngin tarixi-mədəni irsi, müalicəvi su ehtiyatları və ekoturizm potensialı, Prezidentin sərəncamlarına, sosial-iqtisadi inkişafa dair Dövlət Proqramına uyğun tarixi abidələrin bərpası Naxçıvana turist axınının daha da artmasına imkan verəcək. Bu xüsusda hazırda “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması, Möminə xatun türbəsinin, “Ərbabın iş yeri” tarixi binasının, Sərşəhər məscidinin, Ordubad Mədrəsəsinin, İsmayılxan hamamının bərpası və digər tarix-mədəniyyət profilli işlər təqdirəlayiq addımlardır.

Bütün sadalanan amillərə, görülən və görüləcək işlərin mahiyyətinə əsaslanaraq əminliklə demək olar ki, AİZ və Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvan unikal tranzit bölgə statusu qazanacaq. Prezident İlham Əliyevin “Naxçıvanla da bağlı böyük planlar var” ideyası əsasında yaxın gələcəkdə reallaşdırılacaq bütün təşəbbüs və layihələr təkcə muxtar respublikanın deyil, ümumilikdə, ölkənin sosial-iqtisadi inkişaf strategiyasının uğurla reallaşmasına mühüm töhfələr verəcək.

**Nail ƏSGƏROV**

*Yeni nəşrlər*

# Ədalətin işidir: dünyanı abad eylər...




Hər yeni kitab həmişə mənə böyük sevinc bəxş edib. Həftə əvvəli bu sevinci yenidən yaşadım. Öncə qəzetimizlə sıx əməkdaşlıq edən, ictimaiyyətin hüquqi maarifləndirməsini vəzifə və vətəndaşlıq borcu sayan, hazırda Naxçıvan Muxtar Respublikasının Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi vəzifəsində işləyən baş ədliyyə müşaviri, "Dövlət qulluğunda fərqlənməyə görə" medalına layiq görülmüş, "Prokurorluğun fəxri işçisi" döş nişanı ilə təltif edilmiş Faiq Səfərovu "Ədalətin təntənəsi" adlı ikinci kitabının işıq üzü görməsi münasibətilə təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayıram.

Kitab haqqında danışmazdan əvvəl bu dəyərli nəşrin annotasiyasını oxuculara təqdim edirəm: "Kitabda cəmiyyətin inkişafının müxtəlif mərhələlərində yaşayaraq fəaliyyət göstərmiş filosoflar, hüquqşünaslar, sosioloqlar və müxtəlif sahələrdə fəaliyyət göstərən elm, incəsənət xadimləri, o cümlədən dinşünas alimlər, həmçinin dövlət xadimlərinin fikirlərinə əsaslanmaqla "ədalət" anlayışına müxtəlif aspektlərdən yanaşılaraq onun mahiyyəti, forma və məzmunu, dövlətin və cəmiyyətin, habelə ayrı-ayrı şəxslərin həyatında rolu danılmaz faktlarla geniş ictimaiyyətə çatdırılır. Kitabdan hüquq təhsili verən ali məktəb tələbələri, magistrləri, aspirantlar, doktorantlar, hüquq-mühaizə orqanlarının əməkdaşları, habelə geniş ictimaiyyət nümayəndələri faydalana bilərlər".

Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş Vətən oğullarının, o cümlədən "Naxçıvan batalyonu" şəhidlərinin əziz xatirəsinə həsr olunmuş kitab Ulu Öndər Heydər Əliyevin sözləri ilə açılır: ***"Ədalətsizliklə ədaləti bərpa etmək olmaz".***

Müəllif qələmə aldığı bütün yazılarında (yeri gəlmişkən, onu da qeyd edim ki, bu yazıların hamısı "Şərq qapısı" və ölkəmizin müxtəlif mətbuat orqanlarında işıq üzü görmüş və yüksək dəyərləndirilmişdir) bu qənaətin doğruluğunu sübuta çatdıra bilmişdir. Bunu "Ön söz" müəllifi, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent, prokurorluğun fəxri işçisi Malik Səlimov da təsdiq edir: "Ulu Öndər Heydər Əliyevin ümumbəşəri dəyərlərə söykənən ***"Qoy ədalət zəfər çalsın"*** kimi qiymətli kəlamı müasir cəmiyyətdə ədalət anlayışının mahiyyəti və məzmunu daha dolğun və geniş şəkildə özündə əks etdirir. Onun fikrincə, cəmiyyət iki şeydən sarsıla bilər – günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə".

Bir sıra müsbət məziyyətləri ilə diqqətçəkən "Ədalətin təntənəsi"ndəki eyniadlı yazıda müəllif ədalət prinsipinə fəlsəfi baxımdan yanaşaraq yazır ki, tarixboyu ədalət haqqında irəli sürülən bütün mülahizələrdə kainatın tam ədalətli bir nizam və bu nizamın pozulması ilə sistemin məhvə məhkumluğunun qaçılmaz olduğu qeyd edilir.

Unutmaq olmaz ki, fəzilətlərin zirvələrə doğru yolu həmişə daşlı-kəsəkli olmuşdur. Qətiyyətli adamların sevinc hissi süst, ətalətli "Mənə dəxli yoxdur" mövqeyi tutan adamlara, xüsusilə fırıldaqçılara, dələduzlara, xalq malını oğurlayanlara heç zaman nəsib ola bilməz. Ona görə də kimə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Görkəmli dövlət xadimi Heydər Əliyev də qeyd edirdi ki, insanların mənəvi yetkinliyi özünə, düzgün ictimai mühitə və dövlət rəhbərinə inamı nə qədər yüksək olarsa, cəmiyyət də bir o qədər sürətlə inkişaf edər: "Ədalət hər bir sağlam cəmiyyətdə aparıcı ideya aparıcı tezis olmalıdır. Çünki ədalətsizlik insanları incidir, ədalətsizlik insanların inamını qırır".

Müəllif Ulu Öndərin siyasətini böyük ehtiram və sevgi ilə, yeni mərhələdə uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin sözləri ilə fikrini ümumiləşdirir: ***"...Hamı qanun qarşısında bərabər olmalıdır. Heç bir kateqoriyadan olan insanlara heç bir güzəşt edilməməlidir. Hamı qanun qarşısında bərabərdir və hamı qanun qarşısında öz məsuliyyətini dərk etməlidir. Məhz o halda cəmiyyətdə tam şəkildə ədalət bərqərar olunacaqdır".***

Müəllif çox doğru olaraq müasir dövrümüzdə bəzi ölkələrdə ədalət prinsipinin pozulduğunu, bunun isə ağır nəticələr verdiyini diqqətə çatdırır. Qeyd edir ki, son iki əsr ərzində ermənilərin xalqımıza, dövlətimizə qarşı həyata keçirdiyi vandalizm hərəkətlərinin qarşısı məhz ədalətin gücü ilə alındı.

Adıçəkilən yazıda, əvvəldə də diqqətə çatdırdığımız kimi müəllifin ədəbi nümunələrə müraciətidir. Dahi şairimiz Nizami Gəncəvidən gətirilən misal maraqlıdır:

*Dünyada fateh olmaz zülmkarlıq, rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!*
*Ədalətin müjdəsi bu dünyanı şad eylər,*
*Ədalətin işidir: dünyanı abad eylər.*

Faiq Səfərovun kitabında müxtəlif sahələrdə hüquqi-maarifləndirmənin vacibliyi həyati faktlarla oxuculara çatdırılır. "Humanizmin Heydər Əliyev zirvəsi" adlı yazı dahi rəhbərin hər birimiz üçün örnək olan həyat və fəaliyyəti boyu insan hüquq və azadlıqlarının təmin edilməsini prioritet vəzifəyə çevirməsini Ümummilli Liderin xalqına ən böyük xidmət kimi dəyərləndirən müəllif Ulu Öndərin ölkəmizdə ölüm cəzasının ləğv edilməsini, dahi siyasət xadiminin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunmasını dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarılmasını bugünkü inkişafının təməli sayır. Və qeyd edir ki, Ümummilli Liderin Azərbaycanda ölüm hökmünün ləğvi humanizmin Heydər Əliyev zirvəsidir və bu addım ölkəmizin Avropa məkanına inteqrasiyası baxımından yüksək əhəmiyyət daşıyır.

Yeni nəşrin oxunaqlığını təmin edən digər bir məziyyət müəllifin bədii əsərlərdə ədalət axtarışına münasibətdir. Bu baxımdan, "Hüseyn Cavid yaradıcılığında ədalət axtarışı" adlı yazı mütləq vurğulanmalıdır.

Yaşadığımız 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı ölkə Prezidentinin 2024-cü il 28 dekabr tarixli müvafiq Sərəncamı ilə bağlı yazı isə bir sıra məsələlərə bir hüquqşünas baxışının ifadəsidir.

Yeni nəşrdə xalqımızın ən dəyərli nailiyyətləri olan müstəqillik və suverenlik, Konstitusiyada təsbit olunmuş şəxsi hüquq və azadlıqlarımız, təbiət və onun qorunmasına "həyəcan təbilinin çalınması", ərazi aliliyi prinsipi, soyqırımı, çar Rusiyası tərəfindən ermənilərin Naxçıvanda yerləşdirilməsi, valideyn-övlad münasibətlərin və digər məsələlər hüquqi nöqteyi-nəzərdən işıqlandırılıb.

Söhbətimin əvvəlində qeyd etdim ki, Faiq Səfərovun imzasına tez-tez mətbuat orqanlarında rast gəlirik. Bu baxımdan, onun "Media haqqında qanunvericilik mühüm vəzifələr müəyyənləşdirir" adlı yazısı da təbiidir. Müəllif yazır: "... media subyektləri və jurnalistlər cəmiyyətdəki ictimai, siyasi, sosial və iqtisadi vəziyyət haqqında, dövlət orqanlarının, bələdiyyələrin, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə düzgün informasiya almaq hüququna malikdirlər". Bu yazının mətbuat orqanlarında çalışan gənc jurnalistlər, həmçinin adları çəkilən aidiyyəti ünvanlar üçün maraqlı olacağına inanıram.

Yeri gəlmişkən, onu da xüsusi vurğulayım ki, Faiq Səfərov Naxçıvan teleradiosunda "Qanunçuluq" proqramının aparıcısıdır. 2011-ci ildən başlayaraq bu veriliş tamaşaçılara təqdim edilir. Kitabda bu barədə də məlumat verilib.

Son olaraq onu da deyim ki, Faiq Səfərov həm də şair kimi tanıyıram; onun bir neçə şeirinin ilk oxucusu olmuşam. İnanıram ki, adıçəkilən kitabda müəllifin gözəl şairimiz M.Araza həsr etdiyi "Ölüm-yüksəliş" şeiri də oxucular tərəfindən maraqla qarşılanacaq.

**Muxtar MƏMMƏDOV**

# Zəfərin beşinci təntənəsi




Beş il öncə soyuq bir payız günündə başlandı zəfər yürüyüşü. İgid Azərbaycan əsgəri illərdir düşmən tapdağında haray qoparan torpağın hər qarışına can qurban verib irəli atıldı. 44 günün hər anı, hər saniyəsi Azərbaycan xalqının iradə, birlik və qəhrəmanlıq salnaməsinə çevrildi. Şanlı Qələbəmizin müəllifi olan igid oğullarımız, Vətənin hər qarışı uğrunda sinəsini sipər edən qəhrəmanlarımız bir an belə unudulmadı. Onlar heç vaxt unudulmayacaq, daim ehtiramla, böyük sevgi ilə xatırlanacaq. O günlərdə Azərbaycan ordusu yalnız silah gücü ilə deyil, Vətən sevgisinin gücü ilə qalib gəldi.

Qələbənin sevincini, şəhidlərin igidliyinin qürurunu, qazilərin rəşadətini və bu torpağa dönən həyatın səsini özündə yaşadan beş il. Bu illər ərzində Qarabağ dirçəlir, azad torpaqlarda yeni həyat cücərir. Bu Zəfər hərbi gücümüzlə yanaşı, həm də xalqımızın milli birliyinin, hər bir vətənsevər azərbaycanlının dövlətə sədaqətinin və Ali Baş Komandanın qətiyyətinin təntənəsidir. Biz bu gün şəhidlərimizin ruhu qarşısında baş əyərək, onların bizə əmanət qoyduğu azad torpaqlarda əbədiyaşar Azərbaycanı qururuq. Bu yurd yerinin insanları üçün Vətən milləti millət edən ruhdur, xalqı bir amal ətrafında birləşdirən mənəvi sütundur, ən böyük dəyərdir, mənliyimizin, kimliyimizin ayrılmaz parçasıdır. Əcdadlarımızın nəsildən-nəslə ötürdüyü bu müqəddəs yurd sevgisi min illər boyu xalqımızı sınaqlardan keçirib, amma heç vaxt sarsıda bilməyib.

Hər daşında tariximizin izi, hər qarışında bir qəhrəmanın nəfəsi var. Vətən sevgimizin, sədaqətimizin, ruhumuzun yaşadığı ən ülvi məkan, ən müqəddəs ocaqdır. Bu gün biz torpaqlarımızın azadlığının ildönümünü qeyd etməyin qürurunu, sevincini yaşayırıq. Bilirik ki, qarşıda bizi daha qürurlu, daha fəxrli günlər gözləyir. Artıq bu eldə, bu obada "ayrılıq", "hicran" sözləri unudulub. Çünki bu torpaq azaddır, bu xalq qalibdir. Və hər ilin bu fəslində Zəfərin nəfəsi duyulur elə qələbə müjdəli, zəfər ətirli payız kimi!

Uşaqlıq illərimizdən bəri xəyalını qurduğumuz Şuşa, Laçın, Kəlbəcər və digər doğma torpaqlarımız bu gün azad nəfəs alır. Qarabağ həsrətinin sona yetdiyi həmin payız artıq bizim üçün milli dirçəlişin, qələbə ruhunun simvoludur. İndi o torpaqlara yenidən həyat qayıdır. Dağlar yenidən səslənir, çaylar yenidən nəğmə oxuyur. Bütün bunların arxasında isə bir həqiqət dayanır: bu zəfər şəhidlərimizin canı, qəhrəman ordumuzun qanı bahasına qazanılıb. Hər addımda, hər nəfəsdə onların izi, onların ruhu var. Qəlbimizin hər döyüntüsündə "Vətən" deyə çağırdıq, canımızla, qanımızla, inamımızla "azad və müstəqil Azərbaycan" idealına sarıldıq. Biz "müstəqil doğulduq, müstəqil yaşayacağıq, müstəqil öləcəyik" deyə and içdik. Qarabağda, qədim Şuşanın qayalarında, Kəlbəcərin sıldırım dağlarında, Xocalının qarlı yollarında yüzlərlə, minlərlə oğul canını torpağa əmanət qoydu.

Sevdası Vətən olanlar üçrəngli bayrağa bürünüb son mənzillərinə yola salındılar. Onlar müstəqilliyin qiymətini öz qanları ilə yazdılar tarixə. Bu gün qanlı-qadalı, göz yaşlı günlərin yerini nur, səadət və zəfər alıb. İndi Vətən torpağının hər qarışı dirçəliş və yenidənqurmanın şahididir. Bütün bölgələrdə həyat qaynamaqdadır, tikinti, abadlıq, tərəqqi hər addımda özünü göstərir. Bu gün Qarabağ azaddır, Şuşa azaddır, Laçın azaddır! Ağdamın da, Xocalının da, Kəlbəcərin də sahibləri doğma yurdlarına qayıdırlar. Bəli, bu torpaqların azadlığı oğul, qardaş, ata, ömür-gün yoldaşı əvəzinə soyuq torpağı qucaqlayan anaların göz yaşları, yuxusundan atasının son baxışı ilə oyanan körpələrin həsrəti ilə yoğrulub.

Nə az, nə çox, düz beş il əvvəl Şuşada dalğalanan o ay-ulduzlu bayrağımız bir millətin dirçəliş rəmzinə çevrildi. O bayraq 30 illik həsrətin, səbrin, birliyin, Vətən sevgisinin təcəssümüdür. Bu gün o Zəfər Günəşi hər bir dağımızı, hər bir kəndimizi, hər bir ocağımızı işıqlandırır. Azadlıq Günəşinin şəfəqləri doğma elindən, obasından uzaqda yaşamağa məcbur olmuş insanların qəlbində yeni ümid, yeni həyat, yeni nəfəs oyadır. İndi o Günəş azad və müstəqil Azərbaycanın səmasında əbədi parlayır.

Bu torpaq bir daha əsarət görməyəcək!

Bu bayraq bir daha enməyəcək!

Bu Vətən daim azadlığın, müstəqilliyin və qürurun simvolu olaraq qalacaq!

**Bülbül RÖVŞƏNQIZI**

# "III Beynəlxalq Duzdağ Araşdırmaları Konqresi" keçirilib





Noyabrın 14-də Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Çankırı Karatekin Universiteti (Türkiyə), İğdır Universiteti (Türkiyə), Rzeszovski Universiteti (Polşa), AMEA Naxçıvan Bölməsi və Azərbaycan Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutunun birgə təşkilatçılığı ilə "III Beynəlxalq Duzdağ Araşdırmaları Konqresi" keçirilib.

Əvvəlcə yeni infrastrukturla təmin olunan Duzdağ Müalicə Mərkəzi ilə tanışlıq olub. Açılışda Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi anılıb, Dövlət Himni səsləndirilib.

Sonra "Təbiətin Duzdağ möcüzəsi" adlı videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev açılış nitqində bildirib ki, universitetdə keçirilən xüsusi əhəmiyyətli elmi tədbirlərin davamı olan bu konqres Duzdağın yerli və beynəlxalq səviyyədə elmi əsaslarla tanıdılmasına mühüm töhfə verir. Rektor vurğulayıb ki, tədbirdə səsləndirilən elmi materiallar nəşr ediləcək Duzdağın təbii sərvət kimi daha geniş auditoriyaya çatdırılmasına xidmət edəcək.

İğdır Universitetinin rektoru, professor Ekrem Gürel çıxışında Azərbaycan və Türkiyə universitetləri arasında əməkdaşlığın regional elmin inkişafına böyük töhfə verdiyini vurğulayıb. Qeyd edib ki, iki qardaş ölkənin elm ocaqları arasında bu cür birgə təşəbbüslər gələcək nəsil tədqiqatçıların qarşılıqlı elmi mübadiləsini gücləndirir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev Duzdağ Müalicə Mərkəzində son illər aparılan yenilənmə işləri barədə məlumat verib. Bildirib ki, mərkəz rahat infrastrukturu qurulması ilə regionun aparıcı sağlamlıq və turizm məkanlarından birinə çevrilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, Duzdağın sistemli elmi tədqiqi Naxçıvan elminin prioritet istiqamətlərindəndir. Akademik, həmçinin vurğulayıb ki, beynəlxalq əməkdaşlıq bu sahədə yeni metodların tətbiqinə və daha dəyərli elmi nəticələrin əldə olunmasına imkan yaradır.

Çankırı Karatekin Universitetinin professoru Tamer Keçeli Türkiyədəki duz mağaraları ilə Naxçıvan Duzdağının müqayisəli tədqiqinin vacibliyinə toxunaraq bildirib ki, Naxçıvan Duzdağı ilə Çankırı və Tuzluca duz mağaraları oxşar geoloji quruluşa malikdir. Bu paralelliklərin araşdırılması duz yataqlarının formalaşma mexanizmlərinin daha dərindən öyrənilməsinə şərait yaradır.

AMEA Naxçıvan Bölməsinin müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin professoru Vəli Baxşəliyev təqdimatla çıxış edərək Duzdağın tarixi və müalicəvi əhəmiyyəti barədə danışıb, burada aparılan araşdırmalar haqqında məlumat verib.

Tədbirin sonunda təşkilatçılara hədiyyələr təqdim olunub və xatirə fotosu çəkilib.

Konqres Naxçıvan Dövlət Universitetində keçirilən bölmə iclasları ilə öz işini davam etdirib. Bölmələrdə 5 ölkədən, 21 elm və təhsil müəssisəsindən olan alimlərin 60-dan çox məruzəsi dinlənilib.

## Naxçıvan şəhəri istiliklə fasiləsiz təchiz olunur

Naxçıvan Şəhər İcra Hakimiyyətindən bildirilib ki, Şəhər İstilik Təsərrüfatı İdarəsi tərəfindən Naxçıvan şəhərinin fasiləsiz istiliklə təchiz olunması məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər görülür. 2025-2026-cı illərin qış mövsümünə hazırlıqla əlaqədar bütün qazanxanalara baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenilənib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan borular və siyirtmələr yenisi ilə əvəz olunub.

İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının istiliklə etibarlı təmin olunmasına hərtərəfli şərait yaradılıb.

Artıq bütün obyektlərin istiliklə təminatına start verilib. Hazırda Naxçıvan şəhərində 5 mərkəzləşdirilmiş, 39 fərdi qazanxana vasitəsilə 172 yaşayış binası, eləcə də 7 min 300-ə yaxın mənzil və 400-ə yaxın obyekt fasiləsiz olaraq istiliklə təmin edilir.

O da qeyd edilib ki, mövcud inzibati və çoxmənzilli yaşayış binalarının istilik sisteminin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilir, müasir texnoloji avadanlıqlar istifadəyə verilib.

## AMEA-nın 80 illik yubileyində Azərbaycan Respublikası Prezidentinin çıxışı və AMEA Naxçıvan Bölməsinin qarşısında duran vəzifələr



AMEA Naxçıvan Bölməsində "AMEA-nın 80 illik yubileyində Azərbaycan Respublikası Prezidentinin çıxışı və AMEA Naxçıvan Bölməsinin qarşısında duran vəzifələr" mövzusunda tədbir keçirilib.

Tədbiri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq 2025-ci il 18 mart tarixdə Prezident İlham Əliyevin imzaladığı Sərəncam əsasında AMEA-nın 80 illik yubileyinin yüksək səviyyədə qeyd olunduğunu diqqətə çatdırıb. O, ölkə başçısının yubiley tədbirində iştirak edərək proqram xarakterli çıxış etdiyini, bu çıxışın Azərbaycan elminin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Akademik qeyd edib ki, Prezidentin çıxışı elmin inkişafına dair dövlət siyasətinin əsas istiqamətlərini özündə birləşdirir və 19 mühüm istiqamət üzrə müəyyənləşdirilən məsələlər elmi ictimaiyyət üçün yol xəritəsi rolunu oynayır. O bu istiqamətlərə – texnoloji inkişaf və Azərbaycan, təbii resurslardan səmərəli istifadə, süni intellekt, rəqəmsallaşma, hərbi sənaye, elmin praktik nəticələrinin artırılması, geoloji kəşfiyyat işlərinin genişləndirilməsi, bərpa olunan enerji mənbələrinin öyrənilməsi, elmin iqtisadiyyat və sənaye sahələrinə yönəldilməsi və digər aktual məsələlərin daxil olduğunu bildirib.

Daha sonra çıxış edən AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev Prezidentin dil və milli kimlik məsələsinə xüsusi önəm verdiyini qeyd edərək dilin saflığının qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirib. O həmçinin Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi və UNESCO tərəfindən 15 dekabrın Türk Dili Ailəsi Günü elan olunmasının milli kimliyimizin möhkəmlənməsinə xidmət etdiyini bildirib.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Baxşəliyev çıxışında Prezident İlham Əliyevin Azərbaycan dili və tarixi ilə bağlı səsləndirdiyi fikirlərin aktuallığını qeyd edib. O, Qərbi Azərbaycan və Qarabağ ərazilərində yerləşən tarixi abidələrin tədqiqinin, bu ərazilərə dair elmi əsərlərin yazılmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Vəli Baxşəliyev qayaüstü təsvirlərin türk xalqlarının qədim mədəni irsinin tərkib hissəsi olduğunu və bu istiqamətdə aparılacaq elmi tədqiqatların beynəlxalq elmi ictimaiyyət üçün də dəyərli nəticələr verəcəyini vurğulayıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva isə Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərin dövlətin elmə və alimlərə verdiyi yüksək dəyərin göstəricisi olduğunu bildirib. O, Prezidentin çıxışının elmi ictimaiyyət üçün bir növ çağırış xarakteri daşıdığını, elm və texnologiya sahəsində yeni mərhələnin əsasını qoyduğunu qeyd edib.

AMEA Naxçıvan Bölməsi Aparatının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov çıxış edərək hazırlanmış Tədbirlər Planın layihəsini əməkdaşların diqqətinə çatdırıb və layihə müzakirə olunub, müəyyən əlavə dəyişikliklər olmaq şərtilə qəbul edilib.

## Maarif fədaisi Nazlı Nəcəfovanın 135 illik yubileyinə həsr olunmuş konfrans



Noyabrın 15-i Naxçıvan Dövlət Universitetində Naxçıvanda ilk qızlar məktəbinin yaradıcısı, Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin deputatı, Naxçıvan MSSR-in Əməkdar müəllimi, tanınmış maarifçi Nazlı xanım Nəcəfovanın 135 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

Yubiley tədbirindən əvvəl görkəmli pedaqoq Nazlı Nəcəfovanın Naxçıvan şəhərində yerləşən məzarı ziyarət olunub.

Tədbirdə Nazlı Nəcəfovanın həyat və fəaliyyətinə həsr edilən videoçarx nümayiş etdirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev keçirilən yubiley konfransının böyük əhəmiyyətə malik olduğunu bildirib. Rektor tanınmış maarifçi Nazlı Nəcəfovanın qadınların təhsil imkanlarının genişlənməsi, maarifçilik ideyasının yayılması və cəmiyyətin tərəqqisi naminə həsr etdiyi mənalı ömür yolundan, keçdiyi çətin sınaqlı yolların arxasında xalqa, millətə sevgi və əsl vətənpərvərlik hisslərinin dayandığından bəhs edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov qadınların təhsilli cəmiyyətin inkişafını müəyyən edən əsas amillərdən biri olduğunu vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova Nazlı Nəcəfovanın muxtar respublikada qadınların təhsili və inkişafı istiqamətində ozamankı çətin dövrlərdə atdığı addımların çox mühüm işlər olduğunu vurğulayıb.

Naxçıvan Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Sevinc Abbasova görkəmli pedaqoq Nazlı Nəcəfovanın yaradıcılığının bugünkü qadınların ictimai fəaliyyətinə işıq saçdığını söyləyib, müəllifi olduğu "Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi" adlı kitabını maarifpərvər ziyalının nəticəsi Cabbar Hüseynliyə təqdim edib.

Nazlı Nəcəfovanın nəticəsi, elm və təhsil sahəsi üzrə Prezident mükafatçısı Cabbar Hüseynli konfransın yüksək səviyyədə təşkilinə görə ailəsi adından minnətdarlığını bildirib.

Yekunda NDU-nun Fizika-riyaziyyat fakültəsinin Fizika müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Əsmər Mikayılovaya ilk dəfə təsis olunan "Nazlı xanım Nəcəfova adına tələbə təqaüdü" təqdim edilib.

Tədbirdən sonra universitetin Pedaqoji fakültəsində Nazlı Nəcəfovanın adını daşıyan auditoriyanın açılışı olub.

## Məktəblilərimiz böyük uğura imza atıb




Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2025) yekunlaşıb.

Festivalda iştirak edən Naxçıvan STEAM Təlim-Tədris Mərkəzinin 10 komandasından 3 komanda (dron, CNC lazer kəsim və mühəndislik kateqoriyası) I yerin, 1 komanda (robot qayıq yarışları üzrə) II yerin, 4 komanda (xətt izləyən robot, robokids kids kateqoriyası üzrə) III yerin olmaqla, ümumilikdə, 8 komanda qalib olub.

Ötən il Beynəlxalq STEAM Azərbaycan Festivalında I komandamız qalib olmuşdur. Ümumilikdə isə 2021-ci ildən təşkil olunan festivalda komandalar üzrə iştirak və qalib sayına görə məktəblilərimiz SAF 2025-də son 5 ilin ən böyük uğuruna imza atmışdır.

Qeyd edək ki, festivalda 18 yarış kateqoriyası üzrə 20-dən artıq ölkədən minlərlə şagird, tələbə, mentor və ekspert iştirak edib. Yarış kateqoriyaları robototexnika, süni intellekt, bərpa olunan enerji, dron və peyk texnologiyaları, incəsənət, innovativ layihələr və mühəndislik sahələrini əhatə edib. Festivalın final mərhələsinə 1400-dən çox iştirakçı vəsiqə qazanıb. Onlardan 202-si 19 xarici ölkəni təmsil edib. Ümumilikdə isə festivalda təmsil olunan ölkələrin sayı Azərbaycanla birgə 22 olub.

Son 5 ilin ən böyük uğurunu qazanan Naxçıvanın ümumtəhsil məktəblərinin şagirdləri Naxçıvan Beynəlxalq Hava Limanında böyük coşqu ilə qarşılanıb. Təşkil olunan qarşılanma mərasimində ictimaiyyət nümayəndələri, şagirdlər, müəllimlər, müəssisə rəhbərləri və məktəblilərin yaxınları iştirak ediblər.

# Naxçıvanda hərbi təhsil



## Doğrulan ümidlər, yetişən gənclik, yeni hədəflər











Azərbaycan tarixinin parlaq səhifəsi olan şanlı zəfərin qazanılmasından 5 il ötür. Ötən 5 ildə Böyük Qayıdışın şahidləri olduq. Düşmənin 30 ildə viran qoyduğu binalar kərpic-kərpic yenidən quruldu, yollar salındı, insanlar öz yurdlarına, yuvalarına döndülər və bu proses davam edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan kompleks tədbirlər yurd həsrəti çəkmiş insanların rahat, təhlükəsiz yaşayışına hesablanıb. Mövcud binaların bərpası, tikilən yeni binalar, tarixi abidələrin mühafizəsi, milli və dini dəyərlərin qorunması, bütövlükdə, zəruri infrastrukturun qurulması istiqamətində atılan addımlar "Böyük Qayıdış" proqramının uğurlu icrası olmaqla yanaşı, hər bir vətəndaşı gələcəyə daha böyük ümidlərlə baxmağa səsləyir.

### Ümidləri gerçəkləşdirən müzəffər Ordu

Hər bir dövlətin əsas sütunlarından biri ordu quruculuğudur. Müzəffər Ordu həm də müstəqilliyin qarantıdır. 1988-ci ildən başlayaraq ölkəmizdə baş verən hadisələr, yaşanan Qanlı Yanvar faciəsi, Xocalı soyqırımı və torpaqlarımızın işğalı ordu quruculuğunu şərtləndirirdi. Lakin həmin dövrdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi ucbatından bu proses ləngimiş, torpaqların müdafiəsi pərakəndə şəkildə fəaliyyət göstərən könüllü dəstələrin ümidinə qalmışdı. Həmçinin şəxsi mənafelərə qulluq edən ayrı-ayrı başıpozuq silahlı dəstələr vardı. Həmin dövrdə Ulu Öndər Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Qərar qəbul etdi. Bununla da muxtar respublikada ilk milli ordu birləşmələri yaradıldı, Naxçıvanın müdafiə potensialının yaxşılaşdırılması üçün tədbirlər görülməyə başlanıldı, bu diyarın etibarlı müdafiəsinin təmin olunmasına ciddi önəm verilməsi prioritet vəzifəyə çevrildi. Dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra hərbi sahəni daim diqqət mərkəzində saxlamış, ordunun qısa zamanda komplektləşdirilməsinə nail olmuşdur. Yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratmışdır.

### Peşəkar ordunun yolu hərbi təhsildən keçir

Vahid komandanlıq altında formalaşan milli ordu Ulu Öndərin müqəddəs arzularını gerçəkləşdirdi. Şanlı zəfər tarixi yazan müzəffər Ordumuz xalqımızın 30 illik həsrətinə, ağrısına, acısına son qoydu. Bu gün qalib ordumuzun sıralarında xidmət etmək istəyən gənclərin sayı gündən-günə artmaqdadır.

Milli ordunun qısa zamanda peşəkar şəkildə formalaşması uzaqgörən siyasətin bəhrəsi idi. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı. Ümummilli Lider Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması mümkün oldu. Ulu Öndər hələ 70-ci illərdə Bakıda C.Naxçıvanski adına Hərbi Təmayüllü Məktəbi yaradanda da Azərbaycanın müstəqil gələcəyini hədəfləmişdi. Bu məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdı. Bunun ifadəsidir ki, müstəqilliyimizin qorunmasında, habelə milli ordu quruculuğunda həmin məktəbin məzunları müstəsna xidmətlər göstərdilər.

### Naxçıvanda hərbi təhsil quruculuğu

Müstəqillik dövründə milli ordu quruculuğu dövlətin əsas prioritetlərindən idi. Bu isə, öz növbəsində, hərbi təhsil sisteminin dövrün çağırışlarına uyğun təkmilləşməsini şərtləndirirdi. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri Naxçıvanda bir ilk olaraq hərbi təmayüllü məktəbin yaradılması oldu. Dahi rəhbər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə fəaliyyətə başlayan məktəb tez bir zamanda gəncləri ətrafına topladı. Görkəmli dövlət xadimi Heydər Əliyev həmin ili Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşür, xeyir-duasını verərək deyir: ***"Özünü bu peşəyə həsr edən bir Azərbaycan gənci bütün gənclərdən yüksəkdə durur, bütün gənclərdən qiymətlidir. Çünki müstəqil dövlətimiz, müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, dünyada məşhur olan və dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun. Tam inanıram ki, Azərbaycan gəncləri içərisində yaxın gələcəkdə belə sərkərdələr çıxacaqdır".***

Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını ödəmək məqsədilə yaradılan Naxçıvan filialı çox keçmir ki, özünü doğruldur. Ölkə başçısı cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə fəaliyyətinin yeni mərhələsinə qədəm qoyan Naxçıvan Hərbi Liseyi yaradıcısı və qurucusu Ulu Öndər Heydər Əliyevin adını daşıyır. Bu gün liseyin 4 minə yaxın məzunu silahlı qüvvələrin bütün birləşmə və bölmələrində öz xidməti vəzifələrini layiqincə yerinə yetirirlər. Düşmənin cəbhəboyu törətdiyi təxribatların qarşısının alınmasında, eləcə də Aprel döyüşlərində hünər göstərən məzunlar sırasında şəhidlik məqamına yüksələnlər də var. Örnək göstərilən məzunlar yetişən kursantlar üçün vətənpərvərlik məktəbi olub. Bu məktəbi bitirənlər isə Qarabağı azad etdilər...

### Naxçıvanda ikinci hərbi təhsil müəssisəsi – gələcəyə hesablanmış hədəflər

Vətən müharibəsində qazanılan parlaq qələbə ordu quruculuğunun, o cümlədən hərbi təhsil sisteminin yeni mərhələsini müəyyənləşdirdi. Azərbaycan Ordusunun yeni standartlara uyğunlaşdırılması və hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradıldı. Hazırda ölkəmizdə hərbi təhsil Milli Müdafiə Universiteti tərəfindən koordinasiya olunur. Silahlı Qüvvələrin Hərbi Akademiyasının bazası əsasında iki müstəqil institutu – Hərbi Elmi-Tədqiqat İnstitutu və Hərbi İdarəetmə İnstitutu yaradıldı. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirir. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Lisey də Milli Müdafiə Universitetinin tabeliyinə verilib.

Qalib ordunun davamlı olaraq peşəkar kadrlarla təminatı, gənclərin hərb sahəsinə marağı nəzərə alınaraq orta ixtisas təhsil müəssisələrinin yaradılması məqsədilə hərbi təhsil sistemində daha bir əhəmiyyətli qərar qəbul olunub. "Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli Fərmanına əsasən Milli Müdafiə Universitetinin tabeliyində Bakı, Gəncə və Naxçıvan şəhərlərində hərbi kolleclər yaradılıb.

2024-2025-ci tədris ilindən fəaliyyətə başlayan Naxçıvan Hərbi Kolleci müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsili və əlavə təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisəsidir. Ən son texnologiyalarla komplektləşdirilən kollecdə informasiya texnologiyalarının, xarici dillərin tədrisinə xüsusi önəm verilir. İkiillik təhsil müddətini başa vuran kursantlar gizir kimi Azərbaycan Ordusunun hərbi hissə və bölmələrində xidmətə başlayacaqlar.

Ordu quruculuğunu daim prioritet məsələ kimi diqqətdə saxlayan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qayğısı sayəsində hərbi təhsilin maddi-texniki bazası dünya standartlarına uyğun qurularaq gündən-günə möhkəmlənir. Peşəkar hərbi kadr kimi formalaşdırılan gənclər başda qardaş Türkiyə olmaqla dünyanın bir çox dövlətlərində əlavə hərbi təhsil və təkmilləşdirmə kurslarına cəlb edilir, dünya ordularının təcrübəsi ilə praktiki şəkildə tanış olurlar.

Yüksək təhsil, peşə sevgisi və müzəffər Ordu sıralarında xidmət etmək şərəfi gənclərin bu sahəyə marağını artırmaqla həm də onların peşəkar hərbi kadr kimi formalaşmağına təminat verir. Peşəkarlıq isə hər bir işin uğur yoludur.

Təhsil alan gənclərin qarşısında dayanan vəzifə şəhid qanı ilə suvarılan bu torpaqları göz bəbəyi kimi qorumaq, verilən əmanətə sahib çıxmaqdır. Müstəqil və suveren ölkəmizin daim var olması naminə!

**"Şərq qapısı"**

# Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsidir

***Tarixi abidələrimiz qorunur və gələcək nəsillərə ərmağan edilir***

Tarixi abidələr insan zəkasının və istedadının, onun qızıl əllərinin yadigarı olmaqla çox böyük iftixar hissidir. Abidələr əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə qalan yadigar, eləcə də hər bir xalqın böyüklüyünün, ululuğunun nişanəsidir. Bu ululuq Azərbaycan xalqına bəşəriyyətin ilkin dövrlərindən qismət olmuş, bir çox tarixi abidələrimiz əsrlərin keşməkeşlərindən hifz olunaraq bizə gəlib çatmışdır. Biz indi nəinki onları dərindən öyrənməli, həm də müdrik babalarımızın əl izlərini itməyə qoymamalı, mədəni-mənəvi sərvətlərimizi can yanğısı, qayğı ilə bərpa etməliyik. Bir sözlə, tarixi abidələri qorumaq hər bir azərbaycanlının müqəddəs vətəndaş borcu olmalıdır. Çox təəssüf ki, müqəddəs vətəndaş borcu ifadəsi sovetlər dönəmində bəziləri üçün unudulmuşdu. Belə "insanların" laqeyd münasibətinə tuş gələn uçuq, baxımsız tarixi abidələr "ateizm" xəstəliyinə tutulanların düşmən münasibəti nəticəsində acınacaqlı hala düşmüşdü.

Həmin dövrdə Azərbaycan xalqının böyük oğlunun sovetlər birliyində rəhbər vəzifəyə təyin olunması tariximizin öyrənilməsi və qorunması sahəsində də mühüm qərarların verilməsi ilə nəticələndi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsinə çatmışdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər sovetinin "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" 436 № li, 15 sentyabr 1981-ci il tarixli Qərarının qəbul edilməsi Heydər Əliyevin sovet hakimiyyəti illərində tarixi-arxeoloji abidələrin mühafizəsi və tədqiqatları ilə bağlı həyata keçirdiyi ən mühüm tədbirlərdən biri idi. Bu qərar Azərbaycanın tarixi abidələrinin qorunması, tədqiqi və təbliği ilə əlaqədar problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mükəmməl bir proqram sənəd olub, nəinki 80-ci illər üçün, eyni zamanda bu günümüz və gələcək fəaliyyət üçün aktuallığını saxlamaqdadır.

***Hər daşı, hər qayasında tarixin izi olan Naxçıvan***

Qərarda Azərbaycanın bir çox yerlərindəki tarixi abidələrin, Naxçıvandakı Qarabağlar türbəsinin, Ordubad rayonundakı "Xaraba Gilan" kimi tarixi-arxeoloji abidələrin qorunmasının zəruriliyi xüsusilə vurğulanmışdır.

Heydər Əliyevin müdrik siyasəti nəticəsində XXI əsrin ilk illərində Azərbaycan artıq dünya dövlətləri sırasında öz mövqeyini möhkəmlətmiş, iqtisadi və siyasi inkişaf mərhələsinə daxil olmuşdur. 90-cı illərdə, demək olar ki, tam dayanmış arxeoloji ekspedisiyaların fəaliyyəti məhz bu dövrdən başlayaraq yenidən bərpa edildi. Ulu Öndərin, bilavasitə, təşəbbüsü və göstərişi əsasında ilk genişmiqyaslı tədqiqatların Naxçıvan bölgəsində aparılmasına qərar verilmişdir. Bu məqsədlə Naxçıvan bölgəsinin seçilməsi heç də təsadüfi deyildir. İşğalçı Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvanın guya ermənilərə məxsus olması barədə saxta təbliğatla məşğul olur və öz əməllərini tarixi faktları saxtalaşdırmaqla ört-basdır etməyə çalışırdılar. Eyni zamanda Naxçıvan bölgəsi Azərbaycan xalqının qədim tarixinin bütün mərhələlərini əks etdirən tarixi-arxeoloji abidələrlə zəngindir. Məhz buna görə Ulu Öndər Naxçıvanı ilk geniş tədqiqat obyekti olaraq seçmişdir. Ulu Öndərimizin bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaratması sonrakı dövrlərdə də bu sahədə yeni üfüqlər açılmasına imkan verdi.

Dahi rəhbər deyirdi: ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".***

Bu gün qürur hissi ilə deyirik ki, Azərbaycan mədəniyyətinin yüksəlişi, onun dirçəlişi, zənginləşməsi geniş miqyasda təbliği və bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Mədəniyyətimizin milli-mənəvi dəyərlərimizin və mədəni incilərimizin yaşadılması və qorunması bu gün Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidenti tərəfindən mədəniyyətimizin inkişafı ilə bağlı 200-ə yaxın Fərman və Sərəncamın imzalanması bu sahəyə dövlət başçısının ali diqqətinin ideal bir nümunəsidir.

Prezidentimizin qayğısı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə Azərbaycan mədəniyyəti və incəsənəti öz intibahının yüksək mərhələsini yaşamaqdadır. Mədəni incilərimizin dünyanın irs siyahısına salınması, tanıdılması və təbliğ olunması istiqamətində əsaslı qlobal layihələr həyata keçirilməkdədir. Naxçıvan şəhərinin mərkəzində göylərə ucalan Əcəmi yadigarı Möminə xatun türbəsi də bu qayğıdan öz nəsibini alan milli memarlıq abidəsidir.

Gözoxşayan, misilsiz gözəlliyə malik türbə Azərbaycanın hələ qədim dövrlərindən yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır. Türbə "Naxçıvan məqbərələri" tərkibində 30 sentyabr 1998-ci ildən UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilib.

***Dövlət Proqramı tarixi abidələrimizin bərpası istiqamətində də uğurla icra edilir***

Bu gün də Möminə xatun türbəsinin bərpası və dünyaya tanıdılması istiqamətində dövlətimiz tərəfindən mühüm addımlar atılır. Prezident İlham Əliyevin cari ilin mayın 22-də "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalaması bu sahədəki dövlət qayğısından xəbər verir. Sərəncamla abidədə bərpa və konservasiya işlərinin aparılması üçün Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 milyon manat vəsait ayrılıb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biri olan Möminə xatun türbəsinin bərpası işlərinin ilkin mərhələsinə başlanılıb. Xarici mütəxəssislər bu işin yerinə yetirilməsi üçün Naxçıvana dəvət edilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə "Atelier Erich Pummer GmbH" şirkəti arasında imzalanmış müqaviləyə əsasən şirkətin işçi qrupu Naxçıvana gəlib. Şirkət tərəfindən ilkin olaraq ərazidə müvafiq infrastrukturun qurulması işlərinə başlanılıb. Eyni zamanda oktyabr ayında Möminə xatun türbəsinə bitişik torpaqlarda zondlama tədbirləri həyata keçirilib. Tikilinin müəyyən qədər meyilli olması və uzun illər ərzində şaquli istiqamətdən mümkün yayınmalara dair monitorinq sənədlərinin mövcud olmamasını nəzərə alaraq bu tədbirlər türbənin statik dayanıqlığının təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Oktyabr ayında, həmçinin kompleks geotexniki işlər aparılıb: müxtəlif dərinliklərdə quyular qazılıb, nüvələr çıxarılıb, tədqiqat, analiz üçün Bakı şəhərində yerləşən laboratoriyaya göndərilib. Bütün geotexniki tədqiqatlarda bu sahə üzrə Almaniyanın aparıcı şirkətlərindən biri olan "Grundwasser Consulting Ingenieurgesellschaft GmbH"ın təcrübəli mühəndis-müşaviri Michael Ziesche iştirak edib.

Eyni zamanda SPT (Standart Penetrasiya Testi) sınaqları keçirilib ki, bu sınaqlar vasitəsilə torpağın sıxlığı müəyyən edilir. Abidəyə bitişik ərazinin coğrafi xüsusiyyətləri və geoloji quruluşu da diqqətlə araşdırılıb, bu isə müəyyən elmi nəticələrin əldə edilməsinə imkan vermişdir.

Geotexniki işlərlə kifayətlənməyərək müasir georadar cihazdan istifadə etməklə geofiziki tədqiqatların da aparılması qərara alınıb ki, bu üsul tədqiqatçıya yeraltı strukturu daha detallı şəkildə "görməyə" imkan verir. Bu məqsədlə həmin araşdırmanın icrası üçün təcrübəli italyan mühəndisinin cəlb edilməsi istiqamətində iş aparılır və onunla hazırda danışıqlar davam etdirilir.

İlin sonuna qədər türbənin mövcud meylini nəzərə alaraq xüsusi layihə əsasında hazırlanmış və uyğunlaşdırılmış tikinti iskeleləri də gətiriləcəkdir. Sadalanan işlərlə paralel olaraq Möminə xatun türbəsinin bərpası və konservasiyası üzrə ən optimal yanaşmanı müəyyən etməyə kömək edəcək tarixi və digər sənədlərin axtarışı istiqamətində tədqiqatlar da aparılır.

Prezident İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamasından ötən beş ay ərzində aparılan işlərə nəzər yetirdikdə belə qənaətə gəlmək olur ki, qədim abidənin düzgün bərpa edilməsi üçün çoxşaxəli araşdırmalar aparılır və illərdir, gözdən qaçan bəzi məqamların düzgün qiymətləndirilməsi üçün işlər görülür. Bu gün hər bir vətəndaş tariximizin canlı salnaməsi olan abidələrimizi seyr edəndə qürur hissi keçirir. Çünki abidələrimiz qorunur, gələcək nəsillərə ərmağan edilir. Yurdumuzun hər bir guşəsində seyr etdiyimiz bu mənzərələr bizə qürur yaşatmaqla yanaşı, dövlətimizə minnətdarlıq hissimizi də artırır.

**"Şərq qapısı"**




Fətəli Şahın portreti


Atlı


Musiqiçi qız. 1850-ci illər. Şüşə üzərində yağlı boya


Qacar şahzadəsi Vəcullah Mirzə. 1870-ci illər


Dərviş. 1850-ci illər. Şüşə üzərində yağlı boya


Zadəgan xanım. 1870-ci illər

# Mirzə Qədim İrəvani kimdir?

Azərbaycan mədəniyyətinə daim böyük diqqət və qayğı göstərən görkəmli dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə müəyyənləşdirdiyi siyasətə həmişə ehtiramla yanaşan ölkə başçısı cənab İlham Əliyevin Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında 2025-ci il 14 fevral tarixli Sərəncamı Azərbaycanın bu görkəmli rəssamının sənətinə və şəxsiyyətinə hörmətin ifadəsi kimi bütün sənətsevərlərin sevincinə səbəb oldu. Sərəncamda deyilir: *"Mirzə Qədim İrəvani Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarlardandır. O, bir çox sahələri əhatə edən yaradıcılığında klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrini Avropa realist boyakarlığının nailiyyətləri ilə ahəngdar şəkildə birləşdirərək orijinal üslub formalaşdırmış, Azərbaycan təsviri sənəti tarixində yeni mərhələnin başlanğıcını qoymuşdur. Rəssamın zərif koloritli naxışlarla və ornamentli şəbəkələrlə işlənmiş, dərin bədii-estetik təsir gücünə malik tabloları, monumental portret və kompozisiyaları kamil sənət nümunələri kimi bu gün də yüksək dəyərini qoruyub saxlayır".*

Bəs kimdir Mirzə Qədim İrəvani? Bu barədə oxucularımıza da ətraflı məlumat vermək məqsədilə onun əsərlərinin araşdırmaçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Telman İbrahimovla telefon əlaqəsi saxladıq. İstəyimizi səmimiyyətlə qarşılayan alim adıçəkilən Sərəncamın böyük əhəmiyyəti olduğunu vurğulayaraq qeyd etdi ki, Mirzə Qədim İrəvaninin yaradıcılığı haqqında bir çox sənətşünaslar tədqiqatlar aparmış və qiymətli fikirlər söyləmişlər. Telman müəllimin sözlərinə görə, Mirzə Qədim İrəvani, əsasən, nəqqaş kimi tanınsa da, amma onun, eyni zamanda mahir xəttat olması çoxlarına məlum deyildi. Alim qeyd edir ki, İncəsənət Muzeyində Mirzə Qədimin xəttatlıq sənətini əks etdirən bir neçə kalliqrafik lövhə saxlanılır. Bunlardan biri xəttatlıq sənətində nadir və olduqca mürəkkəb sayılan "kalliqram" üslubunda yazılmışdır. Kalliqram yaratmaq bacarığı xəttatlığın ən yüksək peşəkarlıq səviyyəsini əks edərək vaxtilə sufi təriqətlərində zikrin növlərindən biri kimi meydana gəlmişdir. Telman İbrahimovun sözlərinə görə, "Zahir-batin" (Aşkar-gizli) münasibətləri əsnasında "İlahi məhəbbət" anlayışını ifadə edən xəttat Mirzə Qədim – sufi sevgisinin simvolu olan "Gül və bülbül" motivini kalliqram şəklində yaratmışdır. Belə ki, kalliqramın mətni "təliq" xətti ilə yazılaraq "Qurani-Kərim"in "İxlas" surəsi ayələrinin yazılışı nəticəsində "Gül və bülbül" həm dünyəvi, həm də mistik məhəbbətin simvolu sayılır.

Telman müəllim mahir rəssamla bağlı belə bir faktı da diqqətimizə çatdırır ki, onun fırçasına məxsus unikal sənət əsəri – güzgü qapaqlarını bəzəyən "Gül və bülbül" rəsmi Rusiyanın Ermitaj Muzeyində saxlanılır. Həmin rəsm əsəri 1936-cı ildə rəssamın ailə üzvü tərəfindən muzeyə bağışlanıb.

Telman müəllim deyir ki, XIX əsrin sonları və XX əsrin əvvəlində Azərbaycanda maddi imkanı olan insanların evlərinin divarından asılan iki tay qapılı güzgülər dəbdə idi. Balaca qapılar vasitəsilə açılıb-bağlanan güzgülərin şüşəsi Rusiya və Avropadan gətirildiyinə görə çox baha başa gəlir, hətta elit əşya sayılırdı. Mirzə Qədim İrəvani həmin güzgü qapaqlarında təsvirlər yaradarkən artıq İrəvan şəhərinin məşhur rəssamı idi. Məhz bu səbəbdən İrəvan Quberniyasının hərbi qubernatoru general Nikolay Nikolayeviç Karmalin öz evi üçün güzgü qapaqlarını bəzəməyi xüsusi olaraq Mirzə Qədimə sifariş etmişdi. Gənc rəssam da hər iki qapağın astar səthində ən sevdiyi "Gül və bülbül" motivi təsvir etmişdi. Mirzə Qədim İrəvaninin "Gül və bülbül" janrında təsvir etdiyi güzgü qapaqları rəssamın realist portretçi – rəssam olması ilə bərabər, mahir nəqqaş və xəttat olmasını da sübut edir.

Söhbətimiz zamanı Telman müəllim Mirzə Qədimin fransız və rus dillərində sərbəst danışa bildiyini də vurğulayır, digər sənətşünasların da araşdırmalarına toxunaraq Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi mərhum Ziyadxan Əliyevin Mirzə Qədim İrəvaninin geniş-şaxəli yaradıcılığı ilə bağlı tədqiqatlarını yüksək dəyərləndirir.

Buna görə də biz də Ziyadxan müəllimin bu istiqamətdə apardığı araşdırmalarını əldə etdik. Öyrəndik ki, XIX əsrdə ən müxtəlif funksiyalı ictimai tikililərdə monumental-dekorativ rəngkarlığın yer almasını Azərbaycan məkanında qədim bədii ənənənin davam etdirilməsi kimi də dəyərləndirmək olar. Bunun ən yaxşı nümunələrindən biri İrəvan şəhərində yerləşən Sərdar sarayının interyerində yer almış sənət nümunələri sayılır. Sarayın interyerinin tərtibatını təşkil edən ilk divar rəsmləri Təbriz rəssamlıq məktəbinin nümayəndəsi Mir Əbdür Rzanın adı ilə bağlıdır. XVIII əsrin ortalarında sarayın interyerinin yenidən qurulmasına qərar verilmiş və bu işə cəlb edilən yerli gənc rəssam Mirzə Qədim İrəvani burada altı portret işləmişdir. Yeri gəlmişkən, deyək ki, belə bir sifarişin də Mirzə Qədimə həvalə edilməsi, ilk növbədə, gənc rəssamın istedadına olan inamın göstəricisi idi. Xüsusilə o da qeyd edilməlidir ki, Sərdar sarayı 1914-cü ildə erməni vandalları tərəfindən dağıdılmış və sonra Mirzə Qədim İrəvaninin iriölçülü bu portretlərinə gürcülər sahib çıxaraq onları Gürcüstana aparmış və əsərləri saxlamaq üçün Tiflisdəki Hərbi-Tarixi Muzeyə təhvil vermişlər. Həmin portretlər Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Gürcüstan SSR Dövlət Muzeyinə, sonradan isə Gürcüstan İncəsənət Muzeyinə verilib.


Qızılgül və bülbül


Kalliqram

Müstəqillik illərində həmin əsərlərin mövcudluğundan xəbər tutan Azərbaycan tarixçilərinin yerli mətbuatda həyəcan təbili çalmaları nəticəsiz qalmayıb. Azərbaycan hökumətinin Gürcüstan rəhbərliyinə müraciətindən sonra Mirzə Qədim İrəvaninin əsərlərinin Bakıda Azərbaycan mütəxəssisləri tərəfindən bərpa olunmasına və sərgilənməsinə icazə alınıb. Bundan sonra Azərbaycan Milli İncəsənət Muzeyinə gətirilən əsərlər bir neçə ay ərzində tanınmış bərpaçı-rəssam, Əməkdar rəssam Natiq Səfərovun rəhbərliyi altında həyata qaytarılıb. 2019-cu ilin mayında isə həmin əsərlər Heydər Əliyev Mərkəzində "Tarixin şah əsərləri" adı altında ictimaiyyətə təqdim olunub. Sərgidə Gürcüstandan gətirilmiş – Qacarlar dövrünə aid qədim incəsənət nümunələrinin əksəriyyəti, Fətəli şah dövrünə aid dünyaca məşhur yağlı boya rəsmləri, miniatürlər, keramika, metal məmulatları, tekstil və xalçalar da nümayişə çıxarılıb. Sərgidə bu ekspozisiyada hamının nəzərləri bu sərginin keçirilməsində səbəbkar olmuş Mirzə Qədim İrəvaninin portretlərinə zillənmişdi. Belə ki, bu vaxta qədər sənətsevərlər daha çox məşhur fırça ustasının kiçikölçülü qrafika əsərləri ilə tanış idilər.

Oxucularımıza məlumat üçün bildirək ki, rəssamın vəfatından sonra ailə arxivində onun yüzdən çox əsəri qalıbmış. Bizim günümüzə isə onların yalnız 23-ü gəlib çatmışdır. Bunlar da 1918-ci ildə İrəvanda yaşayan azərbaycanlılara qarşı ermənilərin törətdiyi qırğınlardan xilas olmağa çalışan ailə üzvlərinin özləri ilə götürə bildiyi nümunələrdir. Sulu boya və qələmlə çəkilmiş həmin əsərlərin 20 ədədi hazırda Bakıda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

Son olaraq onu da deyək ki, dövlət başçımızın bu Sərəncamından sonra sənətşünasların görkəmli rəssamın yaradıcılıq irsini daha da yaxından araşdıracaqlarına və təbliğinə vəsilə olacağına, xalqımızın bu mədəniyyət nümunələrini dünyaya tanıdacağına əminik.

**Aidə İBRAHİMOVA**
*NDU-nun Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

## Naxçıvan teatrında istifadə olunan yeni üslub – bunraku nədir?



"Bunraku" stilli tamaşa dedikdə, bəlkə də, çoxumuzun ağlında təkcə kuklalardan ibarət bir tamaşa üslubu canlanır. Bu üslub 1872-ci ildən başlayaraq Yaponiyanın Osaka şəhərindən cərəyan edərək Umemura Bunrakkendən adı ilə populyarlaşmışdır. Azərbaycanda da bu tamaşanın izləri müxtəlif zamanlarda özünü göstərməyi bacarıb. Artıq Azərbaycan teatr mədəniyyətində danılmaz rol oynayan Naxçıvan teatrında da bunraku üslubundan istifadə olunmağa başlanılıb. Biz də bu rəngarəng və maraqdoğuran tamaşa üslubu ilə daha yaxından tanış olmaq üçün üz tutduq Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrına. Bizi teatrın direktoru Səyyad Məmmədov qarşıladı.

Yeni üslub və yeni yanaşmalar ilə teatra yeni nəfəs gətirən Səyyad müəllim bizi maraqlandıran sualları cavablandırır, digər tərəfdən isə bu tamaşa üçün teatrda düzəldilən yeni kuklaları göstərir. Direktorun sözlərinə görə, "Bunraku" deyiləndə aktyorları qara geyimdə, arxa fonda kuklaları bədənlərinə geyinərək nümayiş etdirilməsinə deyilir. Yəni bu üslubun dünyada nümayiş olunan formasından istifadə olunub. Hərfi mənası isə "Boy kuklaları" deməkdir. Naxçıvan Dövlət Kukla Teatrında ilk dəfədir ki, bu üslubdan istifadə olunur. Maraqla qarşılanan bu üslub tamaşaçılar tərəfindən böyük rəğbət qazanıb. Artıq ikinci dəfədir ki, teatr bu üslubda yaradılan tamaşasını öz auditoriyasına təqdim edib. Bu tamaşalar nəinki balacaların, hətta onların valideynlərinin də diqqətini özündə cəmləməyi bacarıb. Bayram İskəndərlinin "Özgəyə quyu qazan" tamaşası Naxçıvan teatrında bunraku stilində hazırlanıb. 6 nəfərlik idarə heyəti ilə hazırlanan tamaşada hadisələr meşədə cərəyan edir, heyvanların dili ilə cəmiyyətdə olan proseslər tamaşaçıların diqqətinə çatdırılır.

"Kukla teatrı"nın planları içərisində gələcək zamanlarda bu üslubda tamaşaların yenidən göstərilməsi planlaşdırılır. Kukla teatrının digər teatrlara nisbətən fəaliyyət istiqaməti çoxşaxəlidir. "Mən Naxçıvan Dövlət Musiqili Dram Teatrında da aktyor kimi fəaliyyət göstərirəm. Buradakı aktyorlar daha çox səhnə çəkirlər, digər teatrlarda isə hazır sözlər əzbərləyirsən. Burada isə səhnə arxasında kukla ilə danışırsan, fikrini çatdırmalısan, kuklanın xarakterinə bürünməlisən", – deyən Səyyad Məmmədov teatrda təkcə kukla tamaşaları deyil, monotamaşaların da nümayişinə yer verildiyini qeyd edir. Dünyanın hər yerində kukla teatrı təkcə uşaqlar üçün yox, böyüklər üçün də tamaşalar göstərir. Bəzən kukla deyəndə hamı elə bilir ki, bura yalnız uşaqlar üçündür. Kukla teatrında gələcək fəaliyyət istiqamətləri arasında bu məfhumu sındırmaq öncəlik təşkil edir. Gələcəkdə kukla teatrının fəaliyyət istiqamətləri sırasında bunraku kimi yeni üslubların Naxçıvan Dövlət Kukla Teatrında istifadəsi dayanır. Teatrın rəhbərliyinin dediyinə görə isə gələcəkdə "Əlcək kukla" adlanan kuklalarla tamaşaların reallaşması nəzərdə tutulur.



**Fidan ZAMANOVA**
**Aysu FƏTƏLİYEVA**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri*

# Zəngilandan gəlib Kotamda kök salan ağaclar həm də illərin xatirəsini yaşadır

Azərbaycanın incisi Ordubadın bir kəndi var. Xan Arazın layla çaldığı, Vətənin başlandığı yer, Zəngəzura açılan qapı Kotam kəndi. Bu kəndə ilk dəfə getməyimə baxmayaraq, mənə elə gəlirdi ki, buradakı insanları illərdir, tanıyıram. Gözəl havası, payızın al-əlvan rənginə bürünən bağlar, səliqəli küçələr, mehriban insanlar adamı öz evində hiss etdirir. Bura həm də Vətəndən Vətənə olan yolun başlanğıcıdır.



Hündür dağların qoynunda rast gəldiyimiz bezoar keçilərinin sürülərinə tamaşa edirik. Təbiətə xüsusi yaraşıq verən bu canlılar onlara tamaşa edən insanlardan çəkinmir.

Kənddə qonaq olduğumuz evin ağsaqqalı, 87 yaşlı Əhməd babanın dediyinə görə kənd əvvəllər dağların arasında yerləşirmiş. Sonradan əhalinin yaşayışı çətinləşir. Köhnə Kotamın əhalisi Arazın sahilinə köç etməyə başlayır və burada məskən salırlar. Həmçinin onların buraya köç etmə səbəblərindən biri də həmin ərazidən Azərbaycanın digər rayonlarına gedən yol olur. Həm avtomobil yolunun, həm də qatar yolunun buradan keçməsi onların yaşayış şəraitini yaxşılaşdırır.

Kəndin əhalisi maldarlıq, heyvandarlıq, əkinçiliklə yanaşı, bağçılıqla da məşğul olurlar. Kotam kəndinin iqliminin əlverişli olması burada Zəngilan rayonu ərazisindən gətirilən nar, xurma (xurnik), əncir və başqa meyvə ağaclarının yetişdirilməsinə səbəb olmuşdur.

Əhməd baba keçmişi yada salır: “Hələ sovet dövrü idi. Qatarla gələndə kənd camaatı Azərbaycanın digər bölgələrindən, xüsusilə Zəngilandan bir çox meyvə ağaclarının tinglərini gətirməyə başladı. Əvvəlcə xurma kolxoz sədrinin həyətində əkildi. Sonra gördük ki, bu meyvə bizim kəndin havasına uyğunlaşır, meyvə verir. Kəndin əhalisi xurmanı əkib-becərməyə başladı. Sonra nar, əncir



və başqa ağacların da tinglərini gətirdilər. Bu ağaclara yaxşı qulluq etdikdə yaxşı da məhsul əldə edirik”.

Əhməd babanın bağında onlarla nar sortu, bir neçə əncir və xurma sortları əkilib. Ağaclara xüsusi olaraq qulluq edilərək budama aparılıb. Meyvələr səhərin yağışında yuyulub, par-par parıldayırdı. Nar və xurma ağacları xüsusi qulluq tələb edən ağaclardır. Bu ağaclar hər iqlim şəraitində inkişaf edə bilmir. Kotam kəndinin iqlimi bu ağacların inkişafı üçün çox uyğundur. Kənd camaatı bu meyvələri əkib-becərir, satır ailə büdcəsinə əlavə gəlir gətirirlər.



Xurma ağacının meyvələrini qurudub qışa da saxlayırlar.

Bağda yetişən meyvələrdən dəririk Əhməd babanın söhbətini dinləyə-dinləyə: “Vaxt var idi bax, bu gördüyünüz yoldan (qatar yolunu göstərir) səhər-axşam qatarlar gedərdi. Kimisi Bakıya qonaq gedər, kimisi isə əsgər oğlunu yola salmağa Salamməlik stansiyasına gələrdi. İllərdir, bu kəndin gözü o yollarda qalıb. Yaşımın üstünə yaş gəldikcə dağların o biri üzünə həsrətlə baxıram. Gözüm o yollarda qalıb. Hiss edirəm ki, o yoldan yenidən həm qatar, həm də maşınlar gələcək. Yenə o yolla dayım qızını görməyə gedəcəyəm. Havasına, suyuna həsrət qaldığımız o Vətənə!”

Danışdıqca Əhməd babanın gözləri yaşarır, qəlbinin dərinliklərindəki o həsrət səsi ilə çağlayırdı.

İnşallah, Əhməd baba! Tezliklə o qatar gələcək!

✍ **Turan MƏMMƏDLİ**

# Naxçıvanda 10 kilometr məsafə üzrə velosiped yarışı keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında velosiped yarışı keçirilib. Yarışda yaşı 14-dən yuxarı 50-dən çox həvəskar velosipedçi iştirak edib. İştirakçılar Heydər Əliyev Muzeyinin qarşısından başlayaraq uzunluğu 10 kilometr olan marşrut üzrə hərəkət edərək Uzunoba gölünün ətrafında müəyyən edilmiş finişədək irəliləyiblər. Finişə ən tez çatan iştirakçı Fərid Tağıyev (00:30:00) olub. İlk üç yerin sahibləri diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar.

Yarışın keçirildiyi ünvanda olub, qadınlar arasında qalib adını qazanan 16 yaşlı ***Fatimə Məmmədli***nin təəssüratlarını öyrəndik: “Artıq iki ildir, velosiped idmanı ilə məşğulam və bu müddət ərzində üzərimdə dayanmadan çalışıram. İkinci dəfədir ki, bu yarışda iştirak edirəm. Lakin bu dəfə xüsusi hisslər yaşadım, çünki birinciliyi əldə etmək mənim üçün böyük motivasiya oldu. Yarışa rəfiqəmin təşviqi ilə qatıldım. Yolboyu yorulsam da, iradəmi toplayıb finiş xəttini onunla birgə keçdik”.



Fatimə düşünür ki, belə yarışlarda qadınların daha fəal iştirakı vacibdir. “Uşaqlıqdan bir çox idman növlərinə marağım olsa da, velosiped sürməyi daha çox sevirəm. Bu gün isə artıq gündəlik həyatımın ayrılmaz hissəsidir. Hər gün dərsə velosipedlə gedirəm. Müəllimlərim və dostlarım bunu görüb mənə daha çox motivasiya verirlər”.

Yarışda iştirakçılar arasında Naxçıvan Dövlət Universitetində təhsil alan tələbə ***Dilbər Dilan Acar*** isə bildirdi ki, həm Azərbaycanda, həm də Türkiyədə velosiped sürməyi sevir: “Gözəl bir yarışı başa vurduq. Türkiyədə də velosiped sürürəm. Fərqlilik olsun deyə bu yarışa qatıldım. Velosiped sürmək hobbilərim arasındadır. Çox əyləncəli idi. Üstəlik, sağlamlığım üçün də velosiped sürməyə daha çox maraq göstərirəm. Yarışa qatılmağında əsas məqsəd sağlam həyat tərzinin davamıdır”.



Yarışın ən kiçik iştirakçısı isə 14 yaşlı ***Adəm Qurbanov*** idi. O, velosipedi bacarıqla idarə etməsi, yarış tempini qoruması və idmançılarla çiyin-çiyinə mübarizə apardığı üçün çox sevincli idi. Adəmin sözlərinə görə, idmanla gələcəkdə ciddi şəkildə məşğul olmaq istəyir. Bu yarış təcrübəsi ona daha çox məşq etmək, özünü inkişaf etdirmək üçün əlavə ruh yüksəkliyi yaradıb. İdmanla birgə dərslərinə də ciddi fikir verən Adəm Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdidir.



Qeyd edək ki, nəticələrə əsasən kişilər arasında Fərid Tağıyev birinci, Yusif Mahmudov ikinci, Aydın Rzayev isə üçüncü olub.

Aydan Qasımlı ikinci, Dilan Acar isə üçüncü yeri tutub. Bundan əlavə, oğlanlar arasında ilk beşliyə daxil olan daha iki iştirakçı – Yusif Ələsgərli ilə Mirkənan Seyidov fəxri fərmanla təltif edilib. Tədbirin məqsədi sağlam həyat tərzinin təbliği, fiziki fəallığın artırılması, zərərli vərdişlərdən uzaq qalmağın vacibliyinin diqqətə çatdırılması, həmçinin velosipedin ekoloji baxımdan əlverişli nəqliyyat vasitəsi kimi tanıdılması olub.



# Ustad dərsi olub



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin “Rəsm terapiyası” bölməsində benefisiarlar üçün ustad dərsi keçilib. Təlimçi-rəssam Nigar Mustafayevanın rəhbərliyi ilə iştirakçılar palıd qozalarını rəngləyərək maraqlı kompozisiya hazırlayıblar.

Tədbirdə, ümumilikdə, 16 benefisiar iştirak edib. Tədbir iştirakçıları ilə görüşüb həmsöhbət olduq. Hərəkət qabiliyyəti məhdud olan 26 yaşlı gənc Pərvin Bayramova deyir ki, artıq 6 aydır, Regional İnformasiya Mərkəzinin rəsm bölməsində təhsil alır. Burada özünü xoşbəxt hiss edir, kətan üzərində maraqlı əsərlər yaratmağa çalışır. Mərkəzə gəlməyə başladıqdan sonra yeni dostlar qazanıb və bu mühit onun daxili aləmini daha da zənginləşdirib. O öz inkişafı üçün daim çalışır və keçirilən master-klasda iştirak edərək uşaqlarla birlikdə əyləncəli anlar yaşayır. Öyrənirik ki, Pərvin əvvələr müəyyən hərəkət çətinlikləri yaşasa da, burada keçirdiyi vaxt onun sağlamlığına da müsbət təsir göstərib. Ona ən böyük dəstəyi isə Naxçıvan Regional İnformasiya Mərkəzi həyata keçirir. Burada uşaqlara böyük sevgi və qayğı ilə yanaşılır, onların təlim-tərbiyəsinin, təhsilinin, sağlamlığının, sosial müdafiəsinin yüksək səviyyədə təşkilinə hərtərəfli şərait yaradılır, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.



### İtmişdir

“Tac Rent a Car” MMC-yə (VÖEN-0201377531) məxsus 1 noyabr 2025-ci il tarixdən itən möhür etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini İsmayılova Ərkinaz Hidayət qızının adına olan JN-1991A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Xıdırov Allahverdi Zülfüqar oğlunun adına olan JN-331 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış Hüseynov Qasım Kərim oğluna məxsus JN-536 nömrəli, 10311018 kodlu, 0,73 hektar pay torpağının dövlət aktı itdiyindən etibarsız sayılır.



ŞƏRQ QAPISI

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 500. Sifariş № 279

Nömrəyə məsul: Bülbül Quliyeva, Günay Hacıyeva, Rafiq Təhməzov

Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.